15 İyun Milli Qurtuluş Günüdür!

23 (1173) 10-16 iyun 2021-ci il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

# «BİNƏQƏDİ» YARIMSTANSİYASININ YENİDƏN QURULMASI ELEKTRİK ENERJİSİ TƏCHİZATINDA MÜHÜM ROL OYNAYACAQ




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakının Binəqədi rayonunda "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin (ASC) yenidən qurulan 110/35/6 kilovoltluq "Binəqədi" yarımstansiyasının açılışında iştirak edib.

Azərenerji" ASC-nin prezidenti Baba Rzayev dövlətimizin başçısına yarımstansiyada görülən işlər barədə məlumat verib.

Bildirilib ki, 1952-ci ildə inşa edilən "Binəqədi" yarımstansiyası istismar müddətini iki dəfə keçmişdi. Bu isə texnoloji itkilərin çoxalmasına, müxtəlif qəza hallarının, qısaqapanmaların baş verməsinə, istehlakçıların enerji təchizatında fasilələrin yaranmasına səbəb olurdu. İndi bu yarımstansiya müasir avtomatika sistemləri ilə təchiz edilərək tam yenidən qurulub. Burada görülən işlər çərçivəsində yeni avadanlıqla komplektləşdirilmiş, müasir mikroprosessor tipli rəqəmsal idarəetmə, mühafizə və avtomatika sistemləri ilə təchiz olunmuş yeni İdarəetmə Mərkəzi tikilib və yerli mikro-SCADA sistemi qurularaq yarımstansiyanın idarə olunması tam rəqəmsallaşdırılıb.

Qeyd edək ki, "Binəqədi" yarımstansiyasının yenidən qurulması həm də ona görə əhəmiyyətlidir ki, o, paytaxtın Binəqədi, Nərimanov, Nəsimi rayonlarının dayanıqlı elektrik enerjisi təchizatının təmin olunmasında mühüm rol oynayır.

Diqqətə çatdırılıb ki, Abşeron Regional Elektrik Şəbəkəsinin bu ərazidə yerləşən inzibati binası da yenidən qurulub. Şəbəkənin köhnə inzibati binası genişləndirilərək əsaslı təmir olunub, heyətin fasiləsiz iş rejimində çalışması üçün zəruri şərait yaradılıb. Bununla yanaşı, "Azərenerji" ASC-nin xüsusi təyinatlı maşın-mexanizmləri üçün nəqliyyat sahəsi və onlara təmir xidməti göstərəcək sahələr yaradılıb. Müxtəlif relyeflərdə, ağır şəraitdə işləyə biləcək xüsusi təyinatlı maşınlar alınıb. Ərazidə transformatorların təmir sahəsi qurulub, xüsusi layihə əsasında abadlıq işləri görülüb, geniş yaşıllıq sahələri salınıb.

Prezident İlham Əliyev "Binəqədi" yarımstansiyasını işə salıb.

Dövlətimizin başçısına işğaldan azad edilən Suqovuşan qəsəbəsində yenidən qurulması tam başa çatan, ümumi gücü 7,8 meqavat olan "Suqovuşan-1" və "Suqovuşan-2" kiçik su elektrik stansiyalarında görülən işlər barədə də məlumat verilib.

## Milli Məclisdə 2020-ci il dövlət büdcəsinin icrası haqqında qanun layihəsi üçüncü oxunuşda qəbul edilib

***İyunun 8-də spiker Sahibə Qafarovanın sədrliyi ilə VI çağırış Milli Məclisin 6-cı sessiyası öz işinə başlayıb.***

Növbədənkənar sessiyanın açılışında Milli Məclisin sədri mayın 31-dən iyunun 4-dək Azərbaycan parlamenti nümayəndə heyətinin Pakistan İslam Respublikasına işgüzar (1-2 iyun) və rəsmi (3-4 iyun) səfərləri barədə məlumat verib.

Əvvəlcə İslamabad şəhərində keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının (İƏT PA) İkinci Ümumi Konfransından söz açan Sahibə Qafarova xatırladıb ki, İƏT regional dövlətlərarası iqtisadi təşkilatdır və sıralarında 10 dövləti – Azərbaycan, Əfqanıstan, İran, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Pakistan, Tacikistan, Türkiyə və Türkmənistanı birləşdirir.

Üzv ölkələrin parlament sədrlərinin çıxışları ilə başlanan tədbirdə Milli Məclisin sədri iştirakçıların nəzərinə çatdırıb ki, Azərbaycan nüfuzlu beynəlxalq qurumlarla, o cümlədən İƏT ilə əlaqələrin inkişafına böyük önəm verir. Biz hesab edirik ki, təşkilatın üzvü olan ölkələr arasında çoxşaxəli əməkdaşlığın dərinləşdirilməsi günün tələbidir. Sahibə Qafarova iyunun 4-də Kəlbəcər rayonu ərazisində mülki şəxslərin, o cümlədən 2 jurnalistin mina partlayışı nəticəsində həlak olduğunu da görüş iştirakçılarının diqqətinə çatdırıb, bu hadisənin Ermənistan dövlətinin terrorçu mahiyyətini bir daha sübut etdiyini bildirib.

Cari məsələlərin müzakirəsində deputatlar Jalə Əliyeva, Azər Badamov, Musa Quliyev, Qüdrət Həsənquliyev, Sahib Alıyev, Fəzail Ağamalı, Razi Nurullayev, Elşən Musayev, Kamal Cəfərov, Müşfiq Cəfərov, Bəhruz Məhərrəmov bir sıra mühüm məsələlərə toxunublar.

Deputatlar Kəlbəcərdə baş verən hadisəyə münasibətdə yenə susqunluq nümayiş etdirən ATƏT-in Minsk qrupunun ləğvini təklif ediblər. Həmçinin Novosibirskdə 19 yaşlı Vəkil Abdullayevi qətlə yetirən polisin azadlığa buraxılmasını, ardınca Rusiya KİV-də müşahidə olunan qeyri-adekvat münasibəti olduqca təhlükəli tendensiya kimi dəyərləndiriblər.

Sonra gündəlikdəki məsələlərin müzakirəsinə başlanılıb.

İclasda "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsi (üçüncü oxunuş) barədə məlumat verən İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili bildirib ki, 2020-ci ilin dövlət büdcəsinin icrası Azərbaycan Prezidentinin müəyyənləşdirdiyi inkişaf və dəstək kursunun ardıcıl surətdə davam etdirilməsi, əsas dövlət və sosial vəzifələrin həyata keçirilməsi, əhalinin sosial müdafiəsinin yaxşılaşdırılması, ölkədə makroiqtisadi sabitliyin qorunması, müdafiə və təhlükəsizik məsələlərinin həlli və iqtisadiyyatın qorunaraq stimullaşdırılması istiqamətində öz müsbət rolunu oynayıb.

Qanun layihəsinin üçüncü oxunuşda müzakirəsində deputatlar Razi Nurullayev, Qənirə Paşayeva, Tahir Rzayev, Aydın Hüseynov, Nigar Arpadarai, Vüqar İsgəndərov, Tahir Kərimli fikirlərini bildiriblər.

Maliyyə naziri Samir Şərifov ötən ilin dövlət büdcəsinin icrası ilə bağlı geniş çıxış edib və parlamentdəki müzakirələrdə deputatların qaldırdıqları məsələlərə münasibət bildirib. "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsi üçüncü oxunuşda səsə qoyularaq qəbul edilib.

Gündəlikdəki növbəti qanun layihələri barədə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Anar Məmmədovun və Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynlinin məlumatları dinlənildikdən sonra "Kredit ittifaqları haqqında" Qanunda və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə qanun layihələri də üçüncü oxunuşda qəbul olunub.

Parlamentdə, eyni zamanda, birinci oxunuşda müzakirəyə təqdim olunmuş 8 qanun layihəsinə baxılıb. Gündəlikdəki növbəti 7 qanun layihəsi mahiyyətcə bir-birinə yaxın olduğundan həmin qanun layihələri barədə Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev ümumi məlumat verib.

Komitə sədri nəzərə çatdırıb ki, Azərbaycanın da qoşulduğu "Əlillərin hüquqları haqqında" BMT-nin Konvensiyası əlillik sahəsində milli qanunvericiliyin beynəlxalq hüquq və normalara uyğunlaşdırılmasını tövsiyə edir. Azərbaycan Prezidentinin "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Qanunun tətbiqi barədə" 2018-ci il 18 iyul tarixli Fərmanı və "Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin strukturunun və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" 2019-cu il 18 yanvar tarixli Fərmanı ilə əlilliyin müəyyən edilməsi meyarlarının və qaydalarının ən qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla hazırlanması barədə hökumətə tapşırıq verilib. Sonra gündəlikdəki qanun layihələrinin müzakirə olunduğu 11 komitənin rəyi öyrənilib. Müzakirələrdə komitə sədrləri Zahid Oruc və Siyavuş Novruzov, komitə sədrlərinin müavinləri Əli Məsimli, Qüdrət Həsənquliyev və Sahib Alıyev, deputatlar Razi Nurullayev, Azər Badamov, Elman Nəsirov, İlham Məmmədov, Rüfət Quliyev və Sabir Rüstəmxanlı rəy və təkliflərini bildiriblər.

Sonra plenar iclasda İqtisadi siyasət, sənaye və sahibkarliq komitəsinin üzvü Vüqar Bayramov "Dövlət rüsumu haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) təqdim edib. Bildirib ki, qanunun 2 maddəsinə – 9-cu və 11-ci maddələrinə dəyişiklik edilməsi nəzərdə tutulub və bütövlükdə müharibə qazilərinin sosial müdafiəsinin gücləndirilməsi məqsədini daşıyır.



# "Bakı-Tbilisi-Ceyhan kəməri ilə dünya bazarlarına Azərbaycanın 437 milyon tondan çox nefti nəql edilib"



Bu barədə Energetika naziri Pərviz Şahbazov deyib.
Qeyd edək ki, cari ilin ilk rübündə Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri (BTC) vasitəsilə 6,7 milyon tondan çox (51 milyon barel) xam neft ixrac edilib və həmin neft Ceyhan limanında 70 tankerə yüklənib. Üç ayda BTC üzrə əməliyyat xərclərinə 41 milyon dollardan çox, əsaslı xərclərə isə təqribən 6 milyon dollar sərf olunub.
1768 kilometr uzunluğa malik BTC boru kəməri 2006-cı ilin iyunundan istismardadır.
Həmin vaxtdan bu ilin birinci rübünün sonunadək BTC ilə ümumilikdə təqribən 482 milyon ton (təxminən 3,62 milyard barel) xam neft nəql olunub və Ceyhan limanında 4729 tankerə yüklənərək dünya bazarına göndərilib.
Hazırda BTC boru kəməri Azərbaycandan əsasən "Azəri-Çıraq-Günəşli" (AÇG) nefti və "Şahdəniz" kondensatı daşıyır.
Bundan əlavə, boru kəməri vasitəsilə digər xam neft və kondensat həcmləri də, o cümlədən Türkmənistan, Rusiya və Qazaxıstan nefti nəql olunur.

# Pərviz Şahbazov: Türkiyə ilə "yaşıl enerji" sahəsində böyük uğurlara imza atmağın vaxtıdır

Energetika naziri Pərviz Şahbazov "Turkuaz Media Qrupu"nun təşkilatçılığı və Türkiyənin Energetika və Təbii Sərvətlər Nazirliyinin dəstəyi ilə keçirilən "IV Energetika və Təbii Sərvətlər Zirvəsi"ndə iştirak edib.
Energetika Nazirliyindən bildirilib ki, nazir "Türkiyənin enerjisi - pandemiyadan sonra enerji sənayesini yenidən düşünmək" devizi ilə təşkil olunan tədbirdə çıxış edib. Türkiyənin enerjisinin böyük bir coğrafiyanı aydınladaraq təhlükəsizliyi, sabitliyi, inkişaf və tərəqqini təmin etdiyini vurğulayan P.Şahbazov bu ölkənin vizyonunun postpandemiya dövründə də region üçün strateji əhəmiyyət daşıyacağını qeyd edib.
Bildirilib ki, ulu öndər Heydər Əliyevin qətiyyəti sayəsində 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanmasından başlayan müstəqil enerji siyasətimiz Türkiyə ilə birgə həyata keçirilərək Avrasiya məkanına Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, TANAP, Cənub Qaz Dəhlizi kimi qlobal enerji-kommunikasiya layihələrini qazandırıb. Birgə siyasi iradənin məhsulu olan bu layihələr Azərbaycanın, Türkiyənin, eləcə də digər ölkələrin enerji təhlükəsizliyinə təminat verir, enerji sahəsində əməkdaşlığımızı davamlı prosesə çevirir: "İndiyə qədər Bakı-Tbilisi-Ceyhan boru xətti ilə Türkiyə və dünya bazarlarına təkcə Azərbaycanın təxminən 437 milyon tondan çox nefti nəql edilib. Qaz kəmərləri ilə Türkiyəyə "Şahdəniz" yatağından 81,7 milyard kubmetr təbii qaz nəql olunub. 2018-ci ilin iyulundan indiyə kimi TANAP-la Türkiyəyə 10,6 milyard kubmetr təbii qaz nəql olunub. Bu ilin 5 ayı ərzində isə Türkiyəyə nəql olunmuş 4,1 milyard kubmetr qazın 2,2 milyard kubmetri məhz TANAP-ın payına düşüb. Bu dövrdə TAP ilə Avropaya 2,3



milyard kubmetr qaz ixrac edilib. Birgə enerji layihələri hər iki ölkəni dünya üçün əhəmiyyətli enerji mərkəzinə çevirir və Avrasiyanın enerji xəritəsində imzalarını ifadə edir."
Nazir ortaq hədəflərə doğru həmrəyliklə hərəkətin digər töhfəsi kimi SOCAR-ın Türkiyədə neft emalı-neft-kimya-enerji və logistika inteqrasiyası layihəsində, təbii qazın paylanmasında iştirakını qeyd edib. Bildirilib ki, "Star" neft emalı zavodu, "Petkim" və digər layihələr də daxil olmaqla enerji sahəsində müştərək işbirliyimiz Azərbaycanın Türkiyədəki sərmayəsinin sütununu təşkil edir: "Azərbaycanın Türkiyədəki sərmayəsi 18,3 milyard dollara, Türkiyənin isə Azərbaycana yatırdığı investisiyanın həcmi 13 milyard dollara qədər artıb. Prezident İlham Əliyevin ifadə etdiyi kimi ancaq qardaş ölkəyə bu qədər vəsait, bu qədər yatırım qoyula bilər. Bu isə iki ölkə arasındakı siyasi etibardan, etimaddan və əlbəttə ki, qardaş güvənindən irəli gəlir", - deyə nazir əlavə edib.
Qeyd edək ki, Türkiyənin Energetika və Təbii Sərvətlər naziri Fatih Dönməz Beynəlxalq Enerji Agentliyinin icraçı diektoru Fatih Birolun da qatıldığı tədbir üç panel üzrə çıxışlar və müzakirələrlə davam etdirilib.

# H.Əliyev adına neft emalı zavodunun modernizasiya layihəsində qəzasız 25 milyon adam/saat iş görülüb

İyunun 8-də Heydər Əliyev adına neft emalı zavodunun (NEZ) modernizasiyası çərçivəsində 25 milyon təhlükəsiz adam/saatlıq iş həcminə nail olunmasına həsr edilmiş tədbir keçirilib.
SOCAR-dan bildirilib ki, tədbirdə şirkətin prezidenti Rövnəq Abdullayev, şirkət rəhbərliyinin nümayəndələri, "SOCAR Downstream Management" şirkətinin rəhbərliyi və bu şirkətin Müşahidə Şurasının üzvləri, eləcə də layihənin əsas podratçılarından "Wood", "Tecnimont", "TR", "Azfen", "Prokon", "Ustay" şirkətlərinin təmsilçiləri iştirak ediblər.
R.Abdullayev qeyd edib ki, zavodun davamlı istismarını və "Avro-5" standartına cavab verən yanacaq məhsulları istehsalını təmin etmək məqsədi daşıyan modernizasiya və yenidənqurma layihəsi miqyas etibarilə nəhəng olmaqla yanaşı, həm də öz mürəkkəbliyi ilə fərqlənir: "Bu layihə gündəlik fəaliyyətini davam etdirən, strateji əhəmiyyətli məhsullar istehsal edən və yanğın-partlayış təhlükəli xüsusi diqqət tələb edən bir zavod təsərrüfatının ərazisində həyata keçirilir. Belə bir mürəkkəb iş şəraitində çalışmaq, əlbəttə ki, bizdən ikiqat diqqət və əzmkarlıq tələb edir. Bu mənada layihə çərçivəsində 25 milyon qəzasız adam/saat həcmində işin görülməsi uğurlu nəticədir. Müqayisə üçün deyim ki, bu, bir neçə il öncə tikilmiş "SOCAR Polymer" kompleksi və ya Karbamid zavodunun inşasına sərf edilmiş iş həcmindən çoxdur. Bu göstərici SOCAR-da əməyin təhlükəsizliyi məsələsinə verilən önəmin, uğurlu SƏTƏMM siyasətinin parlaq təzahürüdür".
Sonra layihə komandasına, podratçılara sertifikatlar və hədiyyələr təqdim edilib.
Podratçı şirkətlərinin təmsilçiləri yaradılmış şəraitə və onların əməyinə verilən qiymətə görə minnətdarlıqlarını bildirib, SOCAR-la əməkdaşlıqdan məmnunluqlarını ifadə ediblər. Sonda SOCAR rəhbərliyi, "SOCAR Downstream Management" şirkətinin Müşahidə Şurasının üzvləri və podratçı təşkilatların rəhbərləri mühüm uğur münasibətilə xatirə lövhəsinə imza atıblar.

# Bu il TAP-la Avropaya 2,3 milyard kubmetr Azərbaycan təbii qazı göndərilib

Bu barədə energetika naziri Pərviz Şahbazov deyib. Nazir bildirib ki, 2018-ci ilin iyulundan indiyə kimi TANAP-la Türkiyəyə 10,6 milyard kubmetr təbii qaz nəql olunub. Bu ilin 5 ayı ərzində isə Türkiyəyə nəql olunmuş 4,1 milyard kubmetr qazın 2,2 milyard kubmetri məhz TANAP-ın payına düşüb.
Xatırladaq ki, 2018-ci il iyunun 12-də Əskişəhərdə istifadəyə verilən TANAP qaz kəməri ilə Türkiyəyə ilk qaz həcmlərinin nəqli planlaşdırıldığı kimi, həmin il iyunun 30-da başlayıb. TANAP boru kəməri 2019-cu il iyulun 1-dən etibarən Azərbaycan təbii qazının Avropaya nəql edilməsi üçün hazır vəziyyətə gətirilib. TANAP boru kəmərinin ikinci fazası isə 2019-cu il noyabrın 30-da istifadəyə verilib.
TANAP-la Türkiyəyə kommersiya qazının nəqlinə başlanmasının birinci ili 2 milyard kubmetr qaz tədarük edilib. Ticari əməliyyatların ikinci ili keçən il iyunun 30-da bitib və həmin tarixə TANAP-la nəql edilən Azərbaycan qazının həcmi 6 milyard kubmetrə çatıb. Sonrakı dövrdə isə boru kəməri ilə ildə 6 milyard kubmetr qaz nəql olunacaq.
İstismara veriləndən bu vaxtadək TANAP-la Türkiyəyə 10 milyard kubmetrdən çox qaz nəql edilib. TANAP-ın tam gücü ilə nəqlə başlayacağı 2022-ci ildən sonra hər il 1,5 milyard dollardan çox nəqletmə gəliri əldə olunacaq. TANAP-ın səhmlərinin 51 faizi "Cənub Qaz Dəhlizi" QSC-yə, 7 faizi STEAŞ-a, 30 faizi "Botaş"a, 12 faizi isə BP şirkətinə məxsusdur.



# Əhmədbəyli-Horadiz-Mincivan-Ağbənd avtomobil yolunun tikintisi aparılır

Aprelin 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva Cəbrayıl və Zəngilan rayonlarında olarkən Əhmədbəyli-Horadiz-Mincivan-Ağbənd avtomobil yolunun təməlqoyma mərasimindən dərhal sonra layihənin icrasına başlanılıb.
İşğaldan azad olunmuş ərazilərdə dövlətimizin başçısının tapşırığı ilə artıq bir neçə yol layihəsinin icrasına başlanılıb və uğurla davam etdirilir. Bu layihələr işğaldan azad edilmiş rayon və kəndlərin sosial-iqtisadi inkişafında çox mühüm rol oynayacaq.
Əhmədbəyli-Horadiz-Mincivan-Ağbənd avtomobil yolu həm də strateji əhəmiyyəti ilə seçilir. Çünki sözügedən yol Hacıqabul-Horadiz-Ağbənd-Zəngəzur dəhlizi magistral avtomobil yolunun bir hissəsi olmaqla, Zəngilanı Azərbaycanın digər rayonları və Naxçıvan Muxtar Respublikası ilə birləşdirmək baxımından çox böyük əhəmiyyətə malikdir.
Strateji əhəmiyyətə malik avtomobil yolu başlanğıcını Füzulinin Əhmədbəyli kəndindən götürməklə layihələndirilib. Avtomobil yolunun uzunluğu 124 kilometrdir.
Artıq yolboyu genişmiqyaslı tikinti işləri həyata keçirilir. İş həcmi və layihənin qısa müddət ərzində yekunlaşdırılması tapşırığı nəzərə alınaraq tikintini Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin "16 N-li Xüsusi Təyinatlı Yol İstismarı" MMC ilə su-



bpodratçı olaraq yol Türkiyənin tikintisi sahəsində ixtisaslaşmış şirkəti olan "Kalyon RSY İnşaat Adi Ortaklığı Ticari İşletmesi" şirkətinin ölkəmizdəki filialı birgə icra edir.
Yeni Əhmədbəyli-Horadiz-Mincivan-Ağbənd avtomobil yolu işğaldan azad edilmiş Füzuli, Cəbrayıl və Zəngilan rayonlarının ərazisindən keçir və hazırda inşası aparılan Əhmədbəyli-Füzuli-Şuşa, Şükürbəyli-Cəbrayıl-Hadrut və Xudafərin-Qubadlı-Laçın avtomobil yolları başlanğıcını məhz bu yoldan götürür. Tikinti işləri "İnşaat Norma və Qaydaları"nın tələblərinə əsasən, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbərliyinin birbaşa nəzarəti altında həyata keçirilir.

# TRACECA çərçivəsində əməkdaşlığın genişləndirilməsi müzakirə edilib

İqtisadiyyat naziri Mikayıl Cabbarov TRACECA Hökumətlərarası Komissiyasının Daimi Katibliyinin Baş katibi Aset Asavbayevlə görüşüb. İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, görüşdə Azərbaycanın nəqliyyat sahəsində əməkdaşlığa böyük diqqət yetirdiyi, ölkəmizin beynəlxalq və regional nəqliyyat layihələrinin təşəbbüskarı və fəal iştirakçısı olduğu diqqətə çatdırılıb. TRACECA çərçivəsində tərəfdaşlığın əhəmiyyətini vurğulayan iqtisadiyyat naziri üzv ölkələrin nəqliyyat imkanlarının reallaşdırılmasının regionun tranzit-logistika cəlbediciliyini daha da artırdığını, multimodal daşımaların təşviqinə, iqtisadi-ticarət və mədəni əlaqələrin intensivləşməsinə, iqtisadi potensialın gücləndirilməsinə zəmin yaratdığını qeyd edib. Görüşdə Azərbaycanda nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi və inkişafı istiqamətində görülmüş işlər barədə məlumat verilib. Bildirilib ki, ölkəmizin mühüm strateji geosiyasi mövqedə, beynəlxalq



dəhlizlərin kəsişməsində yerləşməsi, böyük həcmli investisiyaların yatırılması Azərbaycanda iri-miqyaslı nəqliyyat-infrastruktur layihələrinin həyata keçirilməsinə imkan yaradıb. Regional nəqliyyat dəhlizlərinin inkişafı istiqamətində də görülən tədbirlər, avtomobil və dəmir yolu xətlərinin beynəlxalq standartlar əsasında yenidən qurulması Azərbaycanın tranzit potensialını gücləndirməklə yanaşı, TRACECA-nın rəqabət qabiliyyətinin artırılmasına da töhfə verir.
TRACECA Hökumətlərarası Komissiyasının Daimi Katibliyinin Baş katibi A.Asavbayev beynəlxalq nəqliyyat dəhlizinin üzv ölkələr arasında daşımaların təşviqində, iqtisadi tərəfdaşlığın möhkəmləndirilməsində rolunu vurğulayaraq, görülən işlərin Avrasiyanın nəqliyyat xəritəsinin əhəmiyyətli hissəsinə çevrildiyini diqqətə çatdırıb.
Görüşdə TRACECA beynəlxalq nəqliyyat dəhlizinin rəqabət qabiliyyətinin və səmərəliliyinin artırılması, əhatə dairəsinin genişləndirilməsi, rəqəmsallaşmanın tətbiqi ilə daşımaların effektivliyinin yüksəldilməsi məsələləri müzakirə olunub.

# Azərbaycanın yüksəlişini, Cənubi Qafqazdakı lider mövqeyini və Qarabağda qələbəsini təmin edən siyasət

(əvvəli ötən sayımızda)

**AZAD OLUNMUŞ ƏRAZİLƏRİMİZİN POTENSİALI AZƏRBAYCANIN İQTİSADİ İNKİŞAFINA BÖYÜK TÖHFƏLƏR VERƏCƏK**

Azərbaycanın Vətən müharibəsindəki qələbəsi isə respublikamızın daha da inkişafı üçün geniş imkanlar açıb. İlk növbədə onu qeyd edim ki, işğaldan azad olunmuş rayonlarımızın böyük iqtisadi potensialı var. Azad olunan hər bir rayonun iqtisadi imkanları çox genişdir. Onların hər birinin yeraltı və yerüstü sərvətləri tükənməzdir. Qarabağ torpaqları əlvan metal filizləri, qızıl, civə, xromit, perlit, əhəng, mərmər, və digər faydalı qazıntılarla zəngindir. İndiyədək Kəlbəcərdə və Zəngilanda qızıl yataqları Ermənistan tərəfindən qanunsuz şəkildə talan olunub. Lakin artıq bu torpaqların sahibləri qayıdıb. Təbii ki, yeraltı sərvətlərimizin cinayət yolu talanması ilə əlaqədar olaraq dəymiş kompensasiya hesablanacaq və Ermənistan beynəlxalq məhkəmə qarşısında cavab verməli olacaq. Qarabağın yeraltı və yerüstü sərvətləri isə bundan sonra Azərbaycan dövlətinin yüksəlişinə, xalqımızın rifahına xidmət edəcək. Yeni təbii resursların dövriyyəyə cəlb etməklə Azərbaycan bu bölgənin inkişafını, dağ-mədən sənayesinin, eləcə də metallurgiya kompleksinin yüksəlişini təmin etmək potensialına malikdir. Metallurgiyanın inkişafı isə Azərbaycanda bir sıra sənaye sahələri ilə yanaşı, həm də hərbi sənayenin inkişafını sürətləndirəcək. Bu baxımdan Qarabağın azad olunması Azərbaycan iqtisadiyyatının yüksəlişinə və diversifikasiyasına töhfə olacaq.

**İşğaldan azad olunmuş ərazilər vaxtilə Azərbaycanda istehsal edilən kənd təsərrüfatı məhsullarının 35-40 faizə qədərini təmin edirdi. Qarabağ ərazisində 250 min hektardan çox məhsuldar torpaq var. Bu baxımdan bu torpaqların dirçəldilməsi Azərbaycanın iqtisadiyyatına böyük töhfələr verəcək. Azərbaycan işğaldan azad olunan torpaqlarda üzümçülük, tütünçülük, pambıqçılıq, baramaçılıq, meyvə-tərəvəz, bostançılıq və heyvandarlığın inkişafı üçün böyük potensiala sahibdir. Eyni zamanda, burada emal və ərzaq sənayesinin inkişafı potensialı var. Ona görə qarşıdakı illərdə azad olunan rayonların iqtisadi fəallığının təmin olunmasından və azad olunmuş torpaqların kənd təsərrüfatına cəlb edilməsindən sonra ölkə üzrə məhsulun ümumi buraxılışı azı 2 milyard manat arta bilər.**

Azərbaycan ərazilərinin işğaldan azad edilməsi həm də ölkəmizdə ərzaq təhlükəsizliyinin təmininə ciddi töhfə verəcək. Xüsusən də heyvandarlıq məhsulları ilə özünütəminetmə səviyyəsi yaxşılaşacaq. Hazırda ölkəmizdə özünütəminetmə səviyyəsi ət və ət məhsulları üzrə 82,5 faiz, süd və süd məhsulları üzrə 86,2 faizdir. Proqnozumuza görə, işğaldan azad edilən ərazilərdə təsərrüfat fəaliyyəti bərpa ediləndən sonra bu məhsullarla özümüzü təmin edə biləcəyik.

Ona görə qarşıdakı illərdə qeyri-neft sektorunun inkişafı ilə bağlı proqnozlara düzəlişlər ediləcək. Çünki Qarabağa qayıdış həm də qeyri-neft sektorumuzun daha sürətlə böyüməsinə təkan verəcək. Ərazilərin işğaldan tam azad olunmasının iqtisadi inkişafımıza təsiri çox böyük olacaq.

Qarabağ bölgəsində Azərbaycanın zəngin su ehtiyatları var. O cümlədən mineral su ehtiyatlarımızın 40 faizə qədəri işğal altındakı torpaqlardadır. Bu baxımdan torpaqlarımızın azad edilməsi su qıtlığının olduğu indiki şəraitdə respublikamızın su təminatına da mühüm töhfə verəcək. Bu ehtiyatlardan həm içməli su, həm meliorasiya, həm də elektrik enerjisi istehsalı üçün istifadə ediləcək. Xüsusən də Kəlbəcər və Laçın rayonları şirin su ehtiyatları ilə zəngindir.



*Yuxarı Gövhərağa məscidi (Şuşa)*

Saf havası, gözəl təbiəti olan Qarabağ tək Azərbaycanın deyil, dünyanın ən füsunkar yerlərindən biridir. Ona görə Qarabağın iqtisadiyyatının dirçəlişi bu bölgədə hər şeydən əvvəl turizm üçün geniş imkanlar açır. Qarabağın kurort-rekreasiya potensialına malik olmasına baxmayaraq, Ermənistan bu potensialdan heç bir zaman tam faydalana bilməyib. Ermənistanın bu istiqamətdə həyata keçirmək istədiyi layihələrin hamısı hədər gedib. Çünki bütün dünya işğal olunmuş əraziləri Azərbaycan torpaqları kimi tanıyıb və buna görə heç vaxt turizm sənayesinin diqqətini çəkməyib. Amma indi Azərbaycan Qarabağı geri alıb və bu ərazilərin təbiəti, resursları turizmin inkişafı üçün böyük imkanlar yaradır.

**İşğaldan azad olunan ərazilərdə "tikinti bumu" gözlənilir. Ərazilərimizin azad edilməsi nəticəsində biz qarşıdakı illər üzrə qeyri-neft sektorunun inkişafı ilə bağlı verdiyimiz proqnozları yenidən işləməli olacağıq. Çünki Ordumuzun bu qələbəsi həm də qeyri-neft sektorumuzun daha sürətlə böyüməsinə təkan verəcək. Ərazilərin işğaldan tam azad olunmasının iqtisadi inkişafımıza təsiri çox böyük olacaq.**

Prezident İlham Əliyevin iştirakı ilə mayın 28-də Ağdamda Sənaye Parkının təməlinin qoyulması isə işğaldan azad olunmuş ərazilərin iqtisadi potensialının hərəkətə gətirilməsi üçün atılan ilk addım oldu. Bütövlükdə azad olunmuş ərazilərimizin potensialı Azərbaycanın iqtisadi inkişafına böyük töhfələr verəcək.

**ZƏNGƏZUR DƏHLİZİNİN YARADILMASI AZƏRBAYCANIN DAHA BİR MİLLİ VƏ TARİXİ MARAĞINI TƏMİN EDƏCƏK**

**44 günlük müharibədə Qələbə qazanmaqla Azərbaycan həm də bütövlükdə regionun iqtisadi potensialından daha səmərəli istifadə edilməsinə böyük zəmin yaradıb. Məqalənin əvvəlində qeyd etdiyim kimi, söhbət Zəngəzur dəhlizi vasitəsilə yeni nəqliyyat əlaqələrinin yaradılmasından gedir.**

Bu yerdə haşiyə çıxaraq qeyd etmək istəyirəm ki, Prezident İlham Əliyev Zəngəzur dəhlizi vasitəsilə nəqliyyat əlaqələrinin yaradılmasını hələ illər əvvəl Azərbaycanın milli marağı kimi müəyyən edib. Çünki bu dəhlizin bərpası ilk növbədə Azərbaycanın əsas hissəsi ilə Naxçıvanın nəqliyyat əlaqələrinin yaxşılaşdırılması baxımından vacibdir. Digər tərəfdən



*"Zəfər yolu" (Şuşa)*

qeyd olunan nəqliyyat əlaqələrinin yaradılması və bərpası ilə Zəngəzur bölgəsi bütün türk dünyasını birləşdirən körpüyə çevriləcək. Xatırladım ki, hələ 2009-cu il oktyabrın 3-də Naxçıvanda Türkdilli ölkələrin dövlət başçılarının IX Zirvə görüşündə Prezident İlham Əliyev bununla bağlı demişdi: "Vaxtilə Azərbaycanın tarixi torpağı, əzəli torpağı Zəngəzur bölgəsinin Azərbaycandan ayrılıb, Ermənistana birləşdirilməsi, demək olar ki, böyük türk dünyasını coğrafi baxımdan parçaladı. Yəni, türk dünyasının vahid bir ailə kimi, vahid bir qüvvə kimi fəaliyyəti onilliklər ərzində dayandırılmışdır. Ancaq biz bu gün qəbul edilmiş qərarlarla, atılmış addımlarla bu bağlantını daha da gücləndiririk".

**2019-cu il oktyabrın 15-də Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə görüşündə Prezident İlham Əliyev bir daha bu mövzuda danışaraq bildirmişdir ki, bütün bunlara baxmayaraq, Naxçıvanda qəbul etdiyimiz qərarlarla və birgə işimizlə biz türk dünyasının birliyini daha da gücləndirdik və qardaşlığımızı davam etdiririk.**

Azərbaycan Prezidenti İlham Əliyev Nizami Gəncəvi Beynəlxalq Mərkəzində "Cənubi Qafqaz: regional inkişaf və əməkdaşlıq perspektivləri" adlı videoformatda müzakirələr zamanı bir daha İkinci Qarabağ müharibəsindən sonra regionda yaranmış iqtisadi əməkdaşlıq imkanları barədə fikirlərini açıqladı. Dövlət başçısı çox haqlı olaraq qeyd etdi ki, biz gələcəyə baxmalıyıq: «Biz indi gələcəyə baxmalıyıq. 30 illik işğala, azad olunmuş ərazilərdə genişmiqyaslı dağıntılara və onların məhv etdiklərinə baxmayaraq, Azərbaycan gələcəyə nəzər salmağa, vahid inteqrasiya edilmiş Cənubi Qafqaz regionunun bir hissəsi olaraq öz gələcəyini planlaşdırmağa hazırdır. Ümid edirik ki, vaxt gələcək və biz, sözün əsl mənasında, Cənubi Qafqazda fəal əməkdaşlıqdan və inteqrasiyadan danışacağıq. Biz artıq çox mühüm təkliflərlə və təşəbbüslərlə çıxış etmişik və yeri gəlmişkən, onlar 10 noyabr 2020-ci il tarixli birgə bəyanatda da əks olunub. Bu, xüsusən də, kommunikasiyaların və yeni daşımalar dəhlizlərinin açılması ilə bağlıdır. Sizə deyə bilərəm ki, bu layihənin həyata keçirilməsi ilə bağlı iş artıq başlayıb. Azərbaycan bu məqsədlə artıq texniki və maliyyə imkanlarını ayırıb. Zəngəzur dəhlizi açıldıqdan sonra bütün region ölkələri üçün yeni imkanlar yaranacaq. Bu səbəbdən, bildirmək istəyirəm ki, Azərbaycan əməkdaşlığa və ümumi gələcəyimizin planlaşdırılmasına açıqdır, çünki biz istəsək də, istəməsək də qonşuyuq və yanaşı yaşamalıyıq və bir daha bu birgə yaşamanı öyrənməliyik. Bu, asan deyil. Burada emosiyalar var. Xüsusən də, Azərbaycan xalqı azad edilmiş torpaqlara səfərlər etdiyi zaman və tam yerlə-yeksan olunan yerləri gördə, siz yəqin ki, təsəvvür edə bilərsiniz, hansı hissləri keçirirlər. Lakin siyasətçilərin rolu öz gündəliklərini müdafiə etməkdən və yalnız qarşılıqlı fəaliyyət sayəsində regionda dayanıqlı inkişafın, sülhün və təhlükəsizliyin olacağını izah etməkdən ibarətdir».

Ermənistanın da bu gün düşdüyü böhrandan ən optimal çıxış variantlarından biri regionda yaranmış yeni iqtisadi əməkdaşlıq imkanlarından yararlanması, qonşularla sivil münasibətlər yaratmasıdır. Düzdür, Ermənistanda aylardır ki, revanşist qüvvələr üçtərəfli bəyanatlara qarşı çıxırlar. Amma qeyd olunduğu kimi, Azərbaycanın qələbəsi Ermənistana başqa yol qoymayıb. Bu ölkə indi Azərbaycanın diktə etdyi şərtlərə uyğun davranmağa məhkumdur. Ermənistan istəsə də, istəməsə də Zəngəzur dəhlizi reallaşacaq. Ermənistanda hakimiyyətdə hansı siyasi qüvvənin olmasına baxmayaraq, bu ölkə öhdəliklərini yerinə yetirmək məcburiyyətindədir. Azərbaycan isə qarşısına qoyduğu məqsədlərə çatan dövlətdir. Prezident İlham Əliyevin siyasi müdrikliyi, uzaqgörənliyi, yürütdüyü diplomatiya respublikamızı uğurdan-uğura aparır.

Cənab İlham Əliyev həmişə bəyan edirdi ki, Ermənistan ərazilərimizdən öz xoşu ilə çıxmasa, Azərbaycan güc yolu ilə onu işğal etdiyi torpaqlarımızdan çıxaracaq. Bu baxımdan 44 günlük Vətən müharibəsi Azərbaycanın öz məqsədlərinə doğru inamla addımlayan dövlət olduğunu və İlham Əliyevin qətiyyətini, dövlətinin milli maraqlarını uğurla təmin edən lider olduğunu göstərdi. Bu baxımdan İlham Əliyevin yürütdüyü siyasət Ermənistanı üçtərəfli bəyanatlarla üzərinə götürdüyü öhdəlikləri tez bir zamanda yerinə yetirməyə məcbur edəcək. Həmin sənədlərdə nəzərdə tutulmuş nəqliyyat əlaqələrinin yaradılması və bərpası ilə Azərbaycan Zəngəzura qayıdacaq.

*(ardı 6-cı səhifədə)*

# Gəncədə "Nizami Gəncəvi və davamlı inkişaf" mövzusunda beynəlxalq elmi konfrans keçirilib

İyunun 4-də Gəncədə Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), İqtisadiyyat Nazirliyi, Təhsil Nazirliyi və Gəncə Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı, "PAŞA Holdinq"in baş sponsorluğu ilə İqtisadiyyat və İdarəetmə Sahəsində Magistr və Doktorantların 3-cü Beynəlxalq Elmi Konfransı işə başlayıb.

"Nizami Gəncəvi İli" çərçivəsində keçirilən və iyunun 7-dək davam edəcək konfrans "Nizami Gəncəvi və davamlı inkişaf" mövzusuna həsr olunub.

Bütövlükdə onlayn təşkil edilən konfransın rəsmi açılışı nüfuzlu qonaqların iştirakı ilə Gəncə şəhərindəki Heydər Əliyev Mərkəzində olub.

Konfransda Təhsil naziri Emin Əmrullayev, Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, UNEC-in rektoru Ədalət Muradov, həmçinin Milli Məclisin deputatları, dövlət qurumlarının əməkdaşları və elm xadimləri iştirak ediblər.

Beynəlxalq konfransın iştirakçıları əvvəlcə dahi şair və mütəfəkkir Nizami Gəncəvinin məqbərəsini və ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət ediblər.

Sonra konfrans Azərbaycanın Dövlət Himninin səsləndirilməsi ilə açıq elan olunub.

İştirakçılar ulu öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canından keçən qəhrəman Vətən övladlarının xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Konfransı açan UNEC-in rektoru, professor Ədalət Muradov bildirib ki, builki konfrans iqtisadiyyat və idarəetmə sahəsində 3-cü belə beynəlxalq tədbirdir. Bu konfrans UNEC tərəfindən beynəlxalq elmi bazalarda indekslənməsi nəzərdə tutulan beynəlxalq konfranslardan biridir. Bu konfrans dünyanın bir sıra nüfuzlu elmi konfrans platformalarının üzvüdür. Bundan əlavə, konfransa göndərilmiş seçilmiş tədqiqat işləri dünyanın 30-a yaxın nüfuzlu elmi platformada indekslənən beynəlxalq elmi jurnallarında nəşr olunacaq.

Təqdim olunmuş işlərin bir hissəsi isə elmi redaktorlu kitab halında beynəlxalq nəşriyyatda nəşr ediləcək. Həmin kitabın elektron versiyası dünyanın nüfuzlu Harvard, Oksford, Yale, Stanford, Princeton, Kolumbiya, Toronto, Çikaqo, Duke universitetləri, Royal Danish Library, British Library, Biblioteque Nationale de France kimi ali təhsil müəssisələrinin kitabxana kataloqlarında yer alacaq. Konfransda təqdim olunmuş məruzələrin dünyanın nüfuzlu indeksli və yüksək impakt faktorlu xarici jurnallarda nəşri də nəzərdə tutulur.

Məlumat verilib ki, konfransda dünyanın 34 ölkəsindən 695 tədqiqatçı, BMT, Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı kimi nüfuzlu təşkilatların mütəxəssisləri, dövlət qurumlarının təmsilçiləri, deputatlar, özəl sektor nümayəndələri iştirak edib. Dörd gün davam edən konfransda 16 seminarda 65, 66 bölmədə isə 444 olmaqla, 510 elmi məruzə dinlənilib.

Rektor bildirib ki, birinci konfransa 21 ölkədən 385, ikinci konfransa 28 ölkədən 430 elmi iş daxil olub. 3-cü konfransda əvvəlki konfransla müqayisədə ölkələrin sayı 34-ə, təqdim edilmiş elmi işlərin sayı isə 444-ə çatıb. Bu isə konfransın beynəlxalq nüfuzunun artdığını göstərir.

Vurğulanıb ki, 3-cü konfransı əvvəlkilərdən fərqləndirən bir neçə digər ciddi məqamlar var. Birincisi, bugünkü 3-cü beynəlxalq konfrans ərazi bütövlüyünü təmin etmiş Azərbaycanda keçirilir. Belə ki, xalqımızın Vətən müharibəsində qazandığı möhtəşəm zəfər regionumuzda tamamilə yeni reallıqlar yaratmaqla yanaşı, Azərbaycanın və bütövlükdə regionumuzun dayanıqlı inkişafı üçün yeni perspektivlər açır. İşğaldan azad olunmuş ərazilərimizdə "ağıllı şəhər" və "ağıllı kənd" layihələrinin işlənməsi və reallaşdırılması, yaşıl enerji və müasir enerjiyə qənaət texnologiyalarından istifadə, təbii resursların istehsal proseslərinə cəlb olunmasında yüksək ekoloji standartların tətbiqi, yeni nəqliyyat dəhlizlərinin açılması kimi strateji məsələlərin elmi cəhətləri bu gün Azərbaycan iqtisadçılarının gündəmində olan əsas mövzulardandır.

İkincisi bu il dahi şair və mütəfəkkir Nizami Gəncəvinin anadan olmasının 880 illiyi qeyd olunur. Bununla əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamı ilə bu il ölkəmizdə "Nizami Gəncəvi İli"nin elan olunması nəzərə alınaraq, builki 3-cü beynəlxalq konfrans Nizami Gəncəvinin 880 illiyi münasibətilə şairin yurdunda təşkil olunub.

Nizami yurdunda beynəlxalq konfransın iştirakçılarını salamlayan Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov çıxışında bildirib ki, Azərbaycanın ikinci böyük şəhəri olan Gəncə, hələ qədim dövrlərdən dünyanın elm və zəngin mədəniyyət mərkəzlərindən biri kimi bir çox əlamətdar hadisələrə şahidlik edib.



XII əsrdə bütün dünyada Müsəlman - şərq intibahının mərkəzi şəhərlərindən olan Gəncədə həmin dövrün bir çox tanınmış şəxsiyyətləri, xüsusən Şərqin ilk şairə qadını Məhsəti Gəncəvi və Nizami Gəncəvi kimi dünya poeziyasının xəzinəsini özünün ölməz əsərləri ilə zənginləşdirən dahi şair və mütəfəkkir yaşamışdır. Gəncə, həmçinin özünün lirik poeziyası ilə bütün Avropada böyük şöhrət qazanmış Mirzə Şəfi Vazehin, Cavad xan kimi tarixi şəxsiyyətlərin Vətəni və Azərbaycan Xalq Cümhuriyyətinin ilk paytaxtıdır.

Vurğulanıb ki, Beynəlxalq elmi konfrans Azərbaycan təhsilinə böyük töhfələr verməklə yanaşı, Nizami yurdunun dünyada tanıdılmasında da mühüm rol oynayacaq.

Sonra Azərbaycanın İqtisadiyyat naziri Mikayıl Cabbarovun videoçıxışı təqdim olunub. Nazir çıxışında innovativ iqtisadiyyatın təhsil sistemi ilə bağlılığına diqqət çəkib, UNEC-də keçirilən elmi konfransların bu istiqamətdə təqdirəlayiq olduğunu deyib. Dövrün qlobal çağırışlarından, sosial-iqtisadi inkişaf və inkişafın dayanıqlığını təmin edən amillərdən söz açan M.Cabbarov 4-cü sənaye inqilabının ölkə iqtisadiyyatı qarşısında yeni yanaşmalar ortaya qoyduğunu, Azərbaycanın hərb meydanında qazandığı qələbənin təməlində güclü iqtisadiyyatın dayandığını deyib. Mikayıl Cabbarov Nizami Gəncəvi yaradıcılığının dayanıqlı inkişafın təmin edilməsi üçün aparılan tədqiqatlar sahəsində tükənməz xəzinə olduğunu da bildirib.

Təhsil naziri Emin Əmrullayev konfransda elmi tədqiqatların aparılmasının əhəmiyyətindən danışaraq bildirib ki, tədqiqat işlərində vaxtı keçmiş alətlərlə müasir dövrün çağırışlarına cavab vermək istəyi müşahidə olunur. Bu sahədə dəyişikliyin həyata keçirilməsi, ali təhsilin yeni modelinin qurulması və bunun elmi tədqiqatlara sirayət etməsi önəmlidir. Nazir son illər ərzində azərbaycanlı alimlərin yazdığı məqalələrin sayında dəyişiklik nəzərə çarpdığını da deyib: "Bu sayı daha da artırmaq lazımdır. Kimlərin həmin məqalələrdən sitat gətirməsi məsələsi də önəmlidir. Gündə bir neçə saatlıq tədqiqat aparmaqla dünya alimləri ilə rəqabət aparan alim nəsli yetişdirə bilmərik. Odur ki, çalışqan olmaq lazımdır".

"PAŞA Holdinq" Şirkətlər Qrupunun Baş icraçı direktoru Cəlal Qasımov isə videoçıxışında holdinq tərəfindən təhsil sahəsində həyata keçirilən layihələrdən söz açıb. Ali təhsil müəssisələri ilə əməkdaşlıq çərçivəsində reallaşdırılan tədbirləri, təcrübə proqramlarını, əmək fəaliyyətinə cəlb olunmalarını xüsusi vurğulayıb. O, "PAŞA Holdinq"in bundan sonra da təhsil layihələrini dəstəkləməyə davam edəcəyini deyib.

Çıxışlardan sonra Nizami Gəncəvi irsi ilə bağlı tədqiqatlar aparan ABŞ-ın Prinston Universitetinin professoru Maykl Barrinin "Nizami Gəncəvi irsi" və Corc Vaşinqton Universitetinin dekanı, professor Maykl Feyerin "Təhsil və İqtisadiyyat" mövzularında videoməruzələri dinlənilib.

# Dahi Nizaminin ideyaları reallıqda



Bu günlərdə Gəncə şəhərində Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) və Gəncə Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı, İqtisadiyyat və Təhsil nazirliklərinin dəstəyi, "PAŞA Holdinq" Şirkətlər Qrupunun baş sponsorluğu ilə Nizami Gəncəvinin 880 illiyinə həsr olunmuş "Nizami Gəncəvi və Dayanıqlı İnkişaf" mövzusunda keçirilən III İqtisadiyyat və İdarəetmə sahəsində Magistr və Doktorantların Beynəlxalq Elmi konfransının açılış mərasimi olub. Beynəlxalq elmi konfransın açılış mərasimində iştirak etmiş iqtisad elmləri doktoru, professor, Auditorlar Palatasının sədri Vahid Novruzov AZƏRTAC-a fikirlərini bölüşüb.

O deyib, dahi Nizaminin belə bir kəlamı mövcuddur ki, insan nəslinin ancaq özü üçün istehsal etməsi və istehlakı son məqsəd ola bilməz. Bu baxımdan konfransın mövzusunun təşkilatçılar tərəfindən çox uğurlu seçimini xüsusi qeyd etmək istərdim. Məhz mövzunun düzgün müəyyənləşdirilməsi Nizami irsində iqtisadi baxışların indinin özündə də böyük aktuallıq kəsb etdiyini açıqlamağa, maraqlı məruzə və çıxışların konfrans materiallarında dolğun əks olunmasına zəmin yaradıb, 35 ölkə təmsilçilərinin aktual mövzularla qatılması ilə reallaşıb. Yeri gəlmişkən qeyd etmək istərdim ki, Birləşmiş Millətlər Təşkilatının müvafiq qurumları tərəfindən dayanıqlı və davamlı iqtisadiyyatın mahiyyəti barədə qəbul etdikləri anlayışları Nizami Gəncəvinin yuxarıda göstərdiyimiz müdrik sözləri ilə üst-üstə düşür. Yalnız təkcə bunun özü xalqımızın dahi mütəfəkkirinin ideyalarının əsrlər sonrası da aktual olaraq qaldığına dəlalət etməklə, onun dünya şöhrəti qazanmasının qanunauyğunluğunu göstərir.

Konfransın işinin yüksək dəyərləndirilməsinə imkan verən əsas xüsusiyyətlərdən danışarkən demək yerinə düşərdi ki, tədbirdə təqdim olunan çıxışların böyük əksəriyyətinin mövzusu dahi Nizaminin ictimai-iqtisadi baxışları ilə üzvi vəhdət təşkil edir. Məlumdur ki, Nizami yaradıcılığında əməyə və əmək adamlarına yüksək dəyər verilir, əmək maddi və mənəvi sərvətlərin yaranmasının əsas amili kimi göstərilir.

Dahi şair əməyin azad olmasının, hər kəsin öz qabiliyyətinə görə işlə təmin olunmasının vacibliyini dəfələrlə öz əbədiyaşar əsərlərində vurğulayıb. Çox ürək açandır ki, istər yerli, istərsə də xarici konfrans iştirakçıları tərəfindən əmək və əmək münasibətlərinə yeni dövrün çağırışları nəzərə alınmaqla böyük diqqət yetirilib, çox maraqlı elmi yanaşmalar ortaya qoyulub. Dahi Nizaminin belə bir fəlsəfəsi də konfrans iştirakçılarının maraq dairəsində olub ki, sənətə və sənətkara daim qayğı göstərilməli, onların mənafeləri məmurlar tərəfindən ciddi qorunmalıdır. Əks halda Nizaminin özü demişkən, sərvət azalar, vergilər ödənilməz, xəzinə boşalar.

Bütün bu göstərilənlər rəqəmsal və innovasiyalı iqtisadiyyatımızın özəllikləri nəzərə alınmaqla konfransda əsas müzakirə mövzuları sırasında özünə yer tutub. Bu özəlliklər isə sənaye inqilabları, idarəetmədə informasiya texnologiyalarından geniş istifadə, ağıllı şəhər (kənd) və yaşıl iqtisadiyyat, innovasiya mədəniyyətinin formalaşması, risklər və onların xüsusiyyətləri, korporativ sosial məsuliyyət, yeni maliyyə alətləri, elektron ticarət və süni intellektin imkanları qismində müzakirə obyekti olublar.

Konfransın əsas məziyyətlərindən biri də Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusunun şanlı Qələbəsi sayəsində işğaldan azad olunmuş ərazilərdə iqtisadiyyatımızın dirçəldilməsi problemlərinə çoxsaylı və kifayət qədər elmi maraq kəsb edən mövzuların mövcudluğudur. Heç şübhə yoxdur ki, möhtərəm prezidentin rəhbərliyi ilə dahi Nizaminin bu sözləri də öz real həllini tapacaq: "Torpağa mərhəmət göstərsən gül verər, zülm etsən isə tikan verər".

Çox xoşdur ki, Nizami irsinin iqtisadi davamlıqla əlaqəsinə həsr olunmuş beynəlxalq elmi konfransda qənaətcillik üçün zəmin yaradan hesabatlılıq, uçot, nəzarət, audit, istehlak mədəniyyəti, hər kəskin öz biliyini artırmaq və düzgün vəzifələrə yiyələnməyin aspektləri də müasir baxımdan müzakirəyə çıxarılıb.

Ölkəmizdə davamlı iqtisadiyyatın elmi əsaslarla inkişaf etməsində bu konfransın mühüm rol oynayacağına əminliyimi bildirməklə çox uğurlu və əhəmiyyətli nailiyyətə imza atmaları münasibəti ilə təşkilatçıları ürəkdən təbrik etmək istərdim.

# Dildə bir, düşüncədə bir, təhsildə bir

**Əvvəl evin içi**

Son vaxtlar ölkə daxilində universitetlərarası əməkdaşlıq müqavilələrinin, tədris və elmi fəaliyyət sahəsində səviyyələri bir-birindən fərqli olan universitetlər arasında anlaşma memorandumlarının imzalanması mərasimlərinin şahidi oluruq. Bəzən bu anlaşmalar güclü və zəif universitetlər arsında olur. Bu anlaşmada əsas qazananlar, zənnimcə, zəif universitetlər olacaq. Belə ki, zəif universitetin güclü universitetə ciddi dəstəyi olmasa da, güclü universitetin zəif universitetə elmi-təşkilati, tədris-metodiki, kadr hazırlığı, idarəetmənin təkmilləşdirilməsi, kiçik layihələrin icrası, tədricən qrant layihələrinə qoşulma və s. məsələlərdə kömək etməsi realdır (əgər universitetin buna həvəsi və istəyi olarsa).

**Vaxtında verilən qardaş dəstəyi**

Eynilə bizim milli universitetlərin TC universitetləri ilə əməkdaşlığı bu aspektlərdə ola bilər. Necə ki, qardaş ölkənin ordumuzun ayağa qalxmasında, müharibədə zəfər çalmaqda bizə ciddi yardımı oldu, onların universitetlərinin də bizim təhsilimizin dirçəlməsində belə ciddi köməyi ola bilər.

Bu gün universitetlərimizin qlobal inkişafdan geriliyi o həddədir ki, biz öz gücümüzlə, kənar dəstək olmadan bu çətinlikdən çıxa bilmərik, hər halda son 15 illik təcrübə bunu göstərdi.

Ali təhsil sahəsində 30 illik fəaliyyətsizlik öz "bəhrəsini" verməkdədir. Universitetlərimizə ediləcək dəstək uzunmüddətli və davamlı olmalıdır, çünki ali təhsil sahəsində islahatlara azı 10 il vaxt lazım olacaq. Digər heç bir ölkənin universitetlərinin bizə davamlı olaraq, səmimi və təmənnasız dəstək verəcəyini düşünmürəm. Burada bizim dil baryerasının olmamasının da xüsusi əhəmiyyəti var. Həm də son 25 il ərzində xeyli azərbaycanlı alimlərin Türkiyə universitetlərinin inkişafında xidmətlərini nəzərə alsaq, belə əməkdaşlıqların səmərəli olduğunu görərik. Azərbaycan Texniki Universitetinə elm və innovasiyalar üzrə prorektor vəzifəsinə professor Çetin Elmas kimi tanınmış alimin dəvət edilməsi də çox təqdirəlayiq hadisədir. Hesab edirəm ki, hər bir universitetimizə bu səviyyəli alimlərin müşavir qismində dəvət edilməsi çox yaxşı olardı. Elə TN-in də belə səriştəli kadrlara ciddi ehtiyacı var, xüsusən ali təhsil sahəsində. TN-ə də bir neçə nəfər türk professorunun müşavir qismində dəvət edilməsi məqsədəuyğundur.

Gələcəkdə Ağdamda açılması nəzərdə tutulan "Qarabağ Dövlət Universiteti"ni də türk qardaşlarımız ilə birgə qursaq, müasir bir universitet yaratmaq şansımız olar.

Türk universitetlərinin bizə qardaş kimi səmimi qəlbdən, təmənnasız dəstəyi bu mərhələdə çox mühümdür.

Bu əməkdaşlıq istər ölkə daxilində, istərsə də beynəlxalq səviyyədə şəbəkə universitetləri formatında, onlayn texnologiyalar əsasında reallaşa bilər. Əks halda universitetlərimiz tədricən tarixin arxivinə gedəcək, nəticədə yaxın gələcəkdə iqtisadi və humanitar problemlərlə rastlaşacağıq. Çünki savadsızlıq bizim xalqa bu gün ermənidən də təhlükəli bir düşməndir.

**Dildə bir, düşüncədə bir, təhsildə bir**

İki qardaş ölkə arasına təhsil sahəsində əməkdaşlığın perspektivləri bu yaxınlarda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Milli Təhsil naziri Ziya Selçukla görüşü zamanı da müzakirə edildi.

Prezident İlham Əliyev görüşdə qeyd etdi: "Əminəm ki, səfəriniz çox uğurlu olacaq və əlaqələrimiz bütün başqa sahələrdə olduğu kimi, təhsil sahəsində də daha sürətlə inkişaf edəcək. Bildiyiniz kimi, Türkiyə ilə Azərbaycan arasındakı əlaqələr ən yüksək səviyyədədir və elə sahə yoxdur ki, biz o sahədə əməkdaşlıq etməyək. İki qardaş ölkə kimi biz bütün sahələrdə qarşılıqlı hörmət və qarşılıqlı maraqlar əsasında əməkdaşlıq edirik. Təhsil sahəsi də əməkdaşlığımızın önəmli bir hissəsidir. Çünki gənc nəslin yetişdirilməsi, bir-birinə bağlı olması üçün, əlbəttə ki, bu sahədə çox önəmli addımlar atılmalıdır və əslində atılır. Əminəm ki, sizin budəfəki səfəriniz çərçivəsində bir çox önəmli məsələlər müzakirə olunacaq və gələcək işbirliyimiz haqqında konkret planlar tərtib ediləcəkdir. Biz hazırda bu sahə ilə bağlı çox ciddi islahatlar aparırıq. Türkiyənin təcrübəsi bizim üçün çox önəmlidir. Həm təhsil, təhsilin keyfiyyətinin qaldırılması, eyni zamanda, Türkiyə və Azərbaycan gənclərinin bir-birinə daha sıx bağlı olması ilə əlaqədar əlavə təkliflər də müzakirə edilməlidir. Çünki biz elə bir güclü müttəfiqlik yaratmışıq ki, gələcək nəsillər öz addımlarını bu müttəfiqliyə, bu qardaşlığa uyğun atmalıdırlar və indidən bir-birinə sıx bağlı olmalıdırlar. Hesab edirəm ki, bu məqsədlə müxtəlif tədbirlər - gənclər forumları, birgə təhsil proqramları və digər tədbirlər keçirilməlidir. Əminəm ki, siz səfər çərçivəsində bu məsələləri öz həmkarınızla geniş müzakirə edəcəksiniz."

İki qardaş ölkə arasına təhsil sahəsində sıx əməkdaşlıq milli təhsilimizin inkişaf edəcəyinə ümid yaradır. 15 il əvvəl parlamentdə o vaxtki millət vəkili, ƏƏSMN naziri, YAP-ın əsasını qoyanlardan biri, professor Ə.Nağıyevin dediyi bir söz yadıma düşdü: "Bizim Qarabağdan da böyük dərdimiz var. Bu, bizim təhsilimizdir".

Qardaşlarımızın dəstəyi ilə Qarabağ problemini həll etdik. Onların dəstəyi ilə Qarabağdan da böyük dərdimizi, təhsil dərdimizi də Allahın izni ilə həll edəcəyik.

**Dosent İlham Əhmədov,**
**təhsil eksperti**

# Ölümü seçən Elçin Həsənli

Düşünürsən, arzuları yarımçıq qaldı. Və necə bir ali arzusuna çatdı.

**Deyirsən, ömrü yarımçıq oldu... Və necə bütöv ömür yaşadı.**

Belə düşündüyümüz vətənsevdalıların, əsgər və zabitlərimizin həyatını öyrənməliyik, öyrətməliyik, vətən sevgisindən dərs almalıyıq. Dərs verməliyik.

**Həsənli Elçin Vaqif oğlu kimi...**

Həmişə seçilib. Nə bahalı geyimi, bahalı telefonu, nə maşını ilə fərqlənmək istəməyib, ağlına gəlməyib. Sadəcə birinci sinifdən məsuliyyəti, çalışqanlığı ilə seçilib. Şəxsiyyət kimi seçilib. Bütün məktəbin sevimlisi olub.

1993-cü il iyunun 16-da Ağstafada ziyalı ailəsində dünyamıza gəlib. Atası aspiranturaya qəbul olunduğundan Bakıya köçüblər. Hal-hazırda elmlər doktoru, professor olan Vaqif Həsənli universitet, anası Xatirə İsmayılova ibtidai-sinif müəllimidir. 1999-cu ildə Suraxanı rayonundakı 290 nömrəli məktəbdə orta təhsilə başlasa da, sonra A.Abdullayev adına Nəsimi rayonu 211-nömrəli tam orta məktəbdə oxuyub. Məzun Elçin Həsənli arzusunun dalınca gedib. Azərbaycan Dövlət Texniki Universitetinin tələbəsi olub 2010-2014-cü illərdə. Məktəbdə olduğu kimi, universitetdə də savadı, düşüncəsi, davranışı ilə fərqlənib.

Müəllimləri onun haqqında bir-birindən gözəl sözlər dedi. Onlara elə gəlirdi ki, ən tutarlı kəlmələri seçsələr də, az olacaq.

**Sonra Həqiqi Hərbi Xidmətə yollanıb. Lənkəranda, Füzulidə hərbi xidmət keçib. Hərbi Xidmətdən sonra magistraturaya daxil olub. 2017-ci ildə magistr təhsilini də fərqlənmə diplomu ilə başa vurub. Bu da Elçinin arzusu idi. Oxumaqdan usanmırdı. Nə qədər oxusa, "azdı"deyirdi.**



2019-cu ildə Azərbaycan Memarlıq və İnşaat Universitetinə doktoranturaya qəbul oldu. Qiyabi oxuyur, "Şirvan" RETŞİ-nin Salyan ETŞİ-də paylayıcı şəbəkə sahəsində mühəndis işləyirdi. Həm də Sabirabad "Asan xidmət" mərkəzində çalışırdı.

**Mükəmməlliyə can atırdı Elçin Həsənli.**

2016-cı il aprel hadisələrində özünə yer tapmadı. Döyüşlərə getmək istəyirdi. Kumiri olan general-mayor Polad Həşimovun ölümündən sarsıldı. "Ermənilərin cavabını verməliyik", - dedi. Elə iyul ayında da könüllü hərbi xidmətə yazıldı.

Anası Xatirə İsmayılova müəllimədir: məktəbdə tədbirlər keçiririk - 20 Yanvar, Xocalı faciəsi, işğal günlərini yad edirik. Bütün bu hadisələr adamı dəhşətə gətirir. Bizim evdə həmişə tarixi-mizlə bağlı söhbətlər olub, bu faciələri yaşamışıq bütün ruhumuzla. Özüm də Vətənə bağlı insanam. Deyirdim ki, vuruşub torpaqlarımızı almalıyıq. Mübariz İbrahimovun qəhrəmanlığı təpik kimi oldu. Silkələdi bizi. Hətta oğlanlarımdan biri gedib şəhid olsa, amma vətən azad olsa, razı olardım. Polad Həşimov öləndə gedib könüllü yazılanlar oldu. İnanırsız, düşündüm ki, görəsən, Elçin də yazılıb? Bir gün dedi ki, "ana, könüllü yazılmışam orduya, müharibə olsa gedəcəm. Sevindim. Hətta şəhid olmasını da gözə aldım. Və o gecə zəngini də gözləyirdim onun kimi. Gecə getmək istəyirdi. Dedim ki, gecə hara gedirsən? Dinmədi. Mən bilirdim bu nə gedişdi. Yatmadı. Bütün gecəni otaqda fırlandı. Su da içmədi. Bir tikə çörək də yemədi. Güclə gözlədi sabahı. Maşın gələndə düşdü tələsik. Maşına minəndə çevrilib mənə baxdı. Elə qəribə baxdı ki... Ürəyimə damdı ki, bu ayrılıqdır".

**Kimsə onu saxlaya bilməzdi...**

"Ən böyük arzum torpaqlarımızın azad olunmasını görməkdi. İndi bu savaşa az da olsa, qatqımın xoşbəxtliyini necə ifadə edim ki?", - deyirdi yaxınlarına.

**Beləcə ilk gün getdi döyüşlərə...**

Döyüş yoldaşlarının sözlərinə görə, Elçin bir şəhidi, yaralını döyüş meydanında qoymurdu. Müharibədi, bəzən gec yardım olunduğundan da itkilər olurdu. Çox diqqətliydi. Güllə altında çıxarırdı onları. Bütün silahlardan istifadə etməyi asanlıqla öyrənirdi. Çox məharətlə döyüşürdü. Təhlükəni hiss edirdi elə bil.

Gəncəli Sərxan Yolçuyev də könüllü qatılıb savaşa, Elçinlə dost olub, Murov uğrunda döyüşlərdə ağır yaralanıb: "Təəssüf edirəm yaralandım, dostlarımın yanında ola bilmədim. Bütün şəhidlər mənim qardaşımdı, vətən övladıdı. Amma Elçinin yeri başqaydı. Elə bir oğul idi ki. Neçə əsgəri ölümdən qurtardı. Yaralıları çiynində daşıyırdı. Savadlı, qorxmaz. Heç inanmırdım ona nəsə olar.Yoxluğuna alışa bilmirəm. Bilirsiz, deyirlər, nöqsansız adam olmur, amma o, nöqsansız idi. Nə desəm, azdı . Mən dostluğu onunla anladım, onunla yaşadım. Hamımızın evində, qonşusunda uşaqlar böyüyür. Söhbətləşəndə deyirdik ki, bu yükü, bu acını onlara qoymayaq - qazinin göz yaşı necə ağrılı olurmuş. Amma biz valideynlərimizdən öncə bu vətənin övladıyıq. Onun üçün canımızdan keçməliyik. Vətən sağ olsun", - deyir, sonra ona yazdığı şeiri oxuyur:

*Allah səni sevdi yenə, Zirvəni*
*bəxş etdi sənə.*
*İtirmək ağırdı mənə sənin kimi*
*igid qardaş.*
*Qan oldu bayraq sinəndə, nə*
*söyləyim mən dinəndə?*
*Mən zəfərə sevinəndə, sən olmuşdun*
*Şəhid, qardaş.*
*İndi saralıb solmuşam,*
*yaman çarəsiz qalmışam.*
*Sən gedəndən mən olmuşam nəfəs*
*alan meyit, qardaş.*
*Bayraq bulaşdı qanına, qurbanam*
*Şəhid canına,*
*Məni də apar yanına, nolar,*
*məni eşit, qardaş.*

Sol cibində ürəyinin üstündə bayrağımızla keçdi bütün savaşı -Vətən yolunu. "Vətən uğrunda" medalı ilə təltif olundu. O qədər cəsur idi ki Elçin. "Cəsurluğa görə" medalına döyüşlərdə fərqləndiyinə, düşmənin əsas qruplaşmalarının məhv edilməsində göstərdiyi igidliyə, bacarığına, bütün tapşırıqları uğurla yerinə yetirdiyinə görə layiq oldu.

Bütün savaşı keçdi Elçin. 43 gün addım-addım irəlilədi qələbəyə. Noyabrın 8-də Şuşa azadlığında Şəhid oldu ərənimiz. Ölümüylə əsgər dostlarını xilas etdi. Şuşa uğrunda döyüşlərdə irəli keçən döyüşçülər yataq kisəsində gizlənən, arxadan onları güllələmək istəyən ermənini görmürlər. Onu Elçin görür, özünü düşmənin üstünə atır. Ölümü özü seçir. Beləcə neçə döyüşçünü xilas edir canı bahasına Vətən yolunda.

**"Şuşanın azad olunması uğrunda" medalına layiq olur.**

Bütün savaşı keçdi Elçin. Cəbrayıl, Füzuli, Xocavənd, Zəngilan, Qubadlı...Və Şuşa. Bütün savaşı ürəyinin üstündə gəzdirdiyi bayrağı anaya verəndə qürur duydu ana. "Şuşa döyüşləri başlayanda ondan xəbər tuta bilmədik bir neçə gün. Bildim ki, şəhid olub. Hiss elədim. Elçini gətirən gün gecə dedim, "Oğlum gəlir. Durun, qarşılayın... Onun nəfəsini, ətrini duydum evdə. Gəldi... Ağırdı, amma başımıza gələn faciələrin cavabını verməliydik. İnanmıram ki, Elçin kimi oğul adi ölümlə ölə bilərdi. O kamil insan idi. Ölümü də fərqli olmalıydı.

**Hər oğul Şəhid olmur, hər ana şəhid doğmur", – dedi ərənimizin anası.**

O bayrağı hər gün yüz dəfə qoxlayır ana: Elçinin ətri var bu bayraqda .

Elədi Xatirə xanım. İndi bayrağımız Elçin ətirlidir.

***Bütün döyüşçülərin, bütün şəhidlərin anaları bilsin ki, indi torpağımız, bayrağımız, çörəyimiz, suyumuz, havamız Elçinlər ətirlidir.***

**Kəmalə Abiyeva**

# Baş Prokurorluq jurnalistlərin həlak olduğu hadisə ilə bağlı məlumat yayıb



Sirac Abışov





Məhərrəm İbrahimov

**Məlumatda deyilir:**

"4 iyun 2021-ci il tarixdə media və dövlət qurumlarının əməkdaşlarının olduğu "Kamaz" markalı sərnişin avtomobilinin Kəlbəcər rayonunun Susuzluq kəndi ərazisində minaya düşərək, 3 nəfərin ölməsi və 4 nəfərin xəsarət alması faktı ilə əlaqədar Azərbaycan Respublikası Hərbi Prokurorluğunda cinayət işi başlanıb.

Təəssüf hissi ilə bildiririk ki, bəzi kütləvi informasiya vasitələrində və sosial media səhifələrində hadisənin baş verməsi ilə əlaqədar əsassız və dəqiqləşdirilməmiş məlumatlar yayılmaqdadır. **Odur ki, Baş Prokurorluq hadisənin baş vermə səbəbləri və mexanizmi barədə aşağıdakıları qeyd edir:**

Aparılmış ilkin istintaqla müəyyən edilib ki, hadisənin baş verdiyi əraziyə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nəzarəti tam təmin olunduğundan, işğaldan azad olunduqdan sonra ora düşmən təxribat qruplarının sızması və orada mina basdırması istisna edilir. Hadisə yerinə mütəxəssislərin iştirakı ilə keçirilmiş baxış zamanı 240 x 230 sm ölçülərində 97 sm dərinliyində çuxur və 1 ədəd tam yararsız hala düşmüş "Kamaz" markalı sərnişin avtomobili aşkar olunub.

Hadisənin baş vermə səbəblərinə gəldikdə isə, partlayış sahəsinin ölçülərinə və partlayış yerinin görünüşünə görə 60-97 sm dərinliyində basdırılmış tank əleyhinə 1 ədəd mina olub. Partlayış yerində minanın heç bir qalığının aşkar olunmaması ilə müəyyən edilir ki, partlayış zamanı istifadə olunan mina plastmas, parça və ya korpussuz tipli tank əleyhinə minaya aid olmuş, fuqas (zirehdələn) tipli, tank və zirehli texnikaların tırtılına qarşı istifadə olunmaqla yollarda və texnikaların hərəkət edə biləcəyi yerlərdə qurulması üçün nəzərdə tutulub.

Partlamış minanın tank əleyhinə TM-62P2, TM-62P3, TM-62T və ya TM-62B tipli (eyni qrupa daxil olan) mina olması və üzərindən avtobusun keçməsi nəticəsində minanın işə düşməsi (partlaması) ehtimal olunur.

Həmçinin müəyyən edilib ki, erməni qanunsuz silahlı birləşmələri işğal zamanı qeyd edilən yoldan döyüş mövqelərinin təminat yolu kimi istifadə ediblər, Kəlbəcər rayonunu tərk edən zaman isə geri çəkildikləri həmin əraziləri minalayıblar. Cinayət işi üzrə istintaq davam edir, gedişatı barədə ictimaiyyətə əlavə məlumatın verilməsi təmin ediləcək".

Qeyd edək ki, iyunun 4-də Kəlbəcər rayonunun Susuzluq kəndi ərazisində hərəkət olan yolda çəkiliş qrupunun üzvlərini aparan nəqliyyat vasitəsi tank əleyhinə minaya düşüb. Nəticədə "Azərtac"ın müxbiri Məhərrəm İbrahimov, AzTV-nin operatoru Sirac Abışov və Kəlbəcər RİH başçısının Susuzluq kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsinin müavini Arif Əliyev həlak olub, 4 nəfər yaralanıb.

# Aleksey Naumov: Həqiqəti göstərmək, obyektiv informasiyanı çatdırmaq istəyən jurnalistlərin həlak olması dəhşətdir

Cənubi Qafqazda baş verən son hadisələr dünya ictimaiyyətinin bu regiona daha çox diqqət ayırmasının zəruriliyini aktuallaşdırdı. Elə düşünmək lazım deyil ki, Azərbaycan öz torpaqlarını geri almaqla münaqişənin tarixi bitdi. Görünür, bir çox dövlətlərin, dövlətlərarası təşkilatların, o cümlədən Minsk qrupunun diplomatik səyləri tələb olunur. Minsk qrupu ilə fəaliyyətə başlamaq yaxşı olardı.

Bu barədə AZƏRTAC-ın müxbirinə müsahibəsində "Kommersant" qəzetinin şərhçisi Aleksey Naumov bildirib.

A.Naumov Azərbaycanın Kəlbəcər rayonunda həlak olan jurnalistlərin ailələrinə başsağlığı verərək deyib: "Həqiqəti göstərmək, obyektiv informasiyanı çatdırmaq istəyən jurnalistlərin həlak olması həmişə dəhşətdir. Onlar münaqişə tərəflərindən birinin öz vəzifələrini yerinə yetirməməsi səbəbindən əziyyət çəkməyə məcburdurlar. Ermənistan ya minalanmış ərazilərin xəritələrinin olmadığını etiraf etməli, ya da bu vəziyyətin düzəlməsi üzrə konstruktiv işə başlamalıdır. Cəmiyyətin, dövlətlərin və dövlətlərarası təşkilatların diqqətini bu məsələyə çəkmək lazımdır. İmkan verilməməlidir ki, dünya xəritəsində Cənubi Qafqazın yaralarının hələ də qanaması yaddan çıxarılsın".



Jurnalist ümidvar olduğunu bildirib ki, illər sonra bu region yenidən inkişaf edəcək. O deyib: "Qarabağın müharibə, dağıntılar, problemlər diyarına deyil, yenidən bülbüllər diyarına çevrilməsini istərdim".

# Sergey Markov: Qarabağda ərazilərin minalardan təmizlənməsi təkcə Azərbaycanın deyil, bütün bəşəriyyətin işi olmalıdır

Dinc sakinlərin, xüsusən də jurnalistlərin həlak olması dəhşətdir. Bu faciənin təqsirkarı minalanmış sahələrin xəritəsini hələ də təqdim etməyən erməni tərəfidir.

Bu barədə AZƏRTAC-ın müxbirinə müsahibəsində rusiyalı politoloq, Siyasi Araşdırmalar İnstitutunun direktoru Sergey Markov bəyan edib. Onun fikrincə, Ermənistanın minalanmış sahələrin xəritəsini verməkdən imtina etmək üçün iki versiya mövcuddur. Ekspert deyib: "Birinci versiya odur ki, xəritə var, lakin onlar bu xəritəni təqdim etmirlər, çünki bununla bağlı alver etmək istəyirlər. İkinci versiya belədir ki, minalanmış sahələrin xəritəsi



yoxdur, çünki onlar bu ərazilərdən çıxanda həmin anda total minalanma həyata keçirilirdi. Əgər onlar minaları bu torpaqları tərk etdikləri zaman basdırıblarsa, o halda bu, vəhşilikdir və 10 noyabr 2020-ci il tarixli Bəyanatın kobud surətdə pozulmasıdır".

S.Markov vurğulayıb ki, Azərbaycan 10 noyabr tarixli Bəyanatın ermənilər tərəfindən sistematik surətdə pozulması barədə sərt şəkildə məsələ qaldırmağa haqlıdır. Çünki bu pozuntular nəticəsində dinc sakinlər, jurnalistlər, hərbi qulluqçular həlak olur. Rusiyalı politoloq deyib: "Bu məsələ BMT Təhlükəsizlik Şurası səviyyəsində qaldırılmalıdır. Lakin bunun üçün BMT Təhlükəsizlik Şurası 10 noyabr 2020-ci il tarixli Bəyanatı dəstəkləməlidir. Təəssüf ki, ermənipərəst mövqe nümayiş etdirən Fransa burada ciddi problem yaradır. Qarabağda ərazilərin minalardan təmizlənməsi təkcə Azərbaycanın deyil, bütün bəşəriyyətin işi olmalıdır".

*(əvvəli 3-cü səhifədə)*

Göründüyü kimi, Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi kurs sözün bütün mənalarında Azərbaycanın yüksəlişini, Cənubi Qafqazdakı lider mövqeyini və Qarabağdakı hərbi Qələbəsini uğurla və layiqincə təmin edib. Qarşıdakı hədəflər isə bəllidir, Prezident İlham Əliyev növbəti 10 ilin milli prioritetlərini də müəyyən edib və bu dövrdə dövlətimiz və xalqımız növbəti tarixi nailiyyətlərinə imza atacaq.

### İŞĞALDAN AZAD EDİLƏN ƏRAZİLƏRİMİZİN YENİDƏN QURULMASI İSTİQAMƏTİNDƏ BÜTÜN LAYİHƏLƏR SÜRƏTLƏ HƏYATA KEÇİRİLƏCƏK

Torpaqlarımızın işğaldan azad olunmasından sonra dünya Azərbaycanın qələbəsi ilə yanaşı, başqa bir reallığa da şahidlik etdi. Şəhər və kəndlərimiz azad olunduqca əyani şəkildə aydın oldu ki, işğalçı yaşayış məntəqələrimizdə daşı daş üstə qoymayıb. Düşmən tarixi və dini abidələrimizə də qənim kəsilib. Onları erməniləşdirmək istəyib, amma bacarmadığı üçün dağıdıb. Talançılıq edərək tarixi eksponatları Ermənistana daşıyıblar. Yeraltı və yerüstü sərvətlərimizi 30 il ərzində qanunsuz şəkildə istismar ediblər və ya oğurlayıblar. İşğal altında olan ərazilərimizin gözəl təbiəti də erməni xislətinin qurbanı olub, meşələr, qiymətli ağac növləri kəsilib, tarixi orta əsrlərə qədər uzanan ağaclar məhv edilib. Ermənistan bütün bunlara görə cavab verəcəkdir. Hələ müharibənin davam etdiyi günlərdən işğaldan azad olunmuş ərazilərimizin bərpasına başlanılıb. Ötən ilin oktyabr ayından Tərtər rayonunda Suqovuşan gedən yeni yolun çəkilişi başlanılıb və işlərin böyük qismi artıq yekunlaşıb. Çünki qayıdışın birinci addımı yoldur. Yol həm də inkişaf, yüksəliş və rifah deməkdir. Hazırda Füzulidən Şuşaya, Horadizdən Zəngilana, Göygöl rayonundan Kəlbəcərə doğru yeni yollar çəkilir, Füzulidə hava limanı inşa olunur.

Aprel ayında Prezident İlham Əliyev tərəfindən Zəngilan rayonunun 1-ci, 2-ci, 3-cü Ağalı kəndlərini əhatə edən birinci "Ağıllı kənd" layihəsinin təməli qoyulub. Bu səfər zamanı həm də Ağdamda azad edilmiş torpaqlarda quruculuq və bərpanın ilk baş planı təsdiq olundu.

Şuşa şəhərində də geniş bərpa işlərinə start verilib. İşğalçıların dağıtdıqları, erməniləşdirilməsinə cəhd göstərdikləri bütün mədəni-mənəvi və tarixi abidərəimiz bərpa olunur.

Dəmir yollarına gəldikdə, artıq bu istiqamətdə də ilkin layihələrin icrası ilə bağlı işlər görülür. Prezident İlham Əliyevin «Bərdə–Ağdam dəmir yolu xəttinin layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında» 24 noyabr 2020-ci il tarixli sərəncamı ilə ümumi uzunluğu 45 kilometr olan Bərdə-Ağdam dəmir yolu xəttinin layihələndirilməsi və tikintisi üçün ilkin olaraq 5 milyon manat ayrılıb. Horadizdən Zəngilanın Ağbənd stansiyasına qədər yeni dəmir yolu xəttinin çəkilişinə start verilib.

Prezident İlham Əliyevin may ayının 28-də – Respublika Günündə Ağdam rayonuna səfəri də işğaldan azad edilmiş rayonların bərpasına xidmət edən yeni layihələrə start verilməsi baxımından olduqca əlamətdar idi. Dövlət başçısının iştirakı ilə təməli qoyulan Bərdə-Ağdam avtomobil yolu Qarabağa qayıdışa, azad edilmiş ərazilərin dirçəlişinə xidmət edən mühüm layihədir.

Bu avtomobil yolu Qarabağın inkişaf planı nəzərə alınmaqla 4 hərəkət zolaqlı olacaq. Bərdə və Ağdam şəhərləri də daxil olmaqla, bu, rayonların 20-dən artıq yaşayış məntəqəsini əhatə edəcək. Ağdamda həm də işğaldan azad edilmiş ərazilər üzrə ilk Baş Plan təsdiq olundu. **«…Bu gün azad edilmiş torpaqlarda birinci Baş Plan artıq təsdiqlənir. İndi Şuşa şəhərinin Baş Planı hazırlanır, artıq bir müddətdən sonra təsdiqlənəcək. Füzuli şəhərinin, Cəbrayıl şəhərinin, digər şəhərlərin Baş Planları üzrə iş gedir».** Qeyd edək ki, ermənilər işğal etdikləri digər rayonlarda olduğu kimi, Ağdamda da tarixdə misli görünməmiş vandallıq ediblər. Bir vaxtlar şöhrəti ilə tanınan Ağdam şəhəri atom bombası ilə dağıdılmış Xirosima və Naqasakini xatırladır. Şəhərdən əsərələmət qalmayıb. Ermənilər Ağdamda xalqımızın tarixi-mədəni irsinə qarşı da vandalizm həyata keçiriblər. Rayondakı abidələr, mədəniyyət ocaqları, məscidlər, qəbiristanlıqlar dağıdılıb, təhqir edilib. Düşmən Şahbulaq qalasını erməniləşdirməyə çalışıb, tarixə qarşı cinayətkarlıq edib.

"Dağılmış Ağdam şəhəri erməni vəhşiliyinin şahididir. Biz Ağdam şəhərini bərpa edəcəyik, bütün kəndləri bərpa edəcəyik. Heç kimdə bu haqda şübhə olmasın". Prezident İlham Əliyev bunu ötən ilin noyabr ayının 24-də Ağdam şəhərinə səfəri zamanı bildirmişdi. Hazırda isə Ağdamın bərpası istiqamətində layihələr həyata keçirilir.

**Prezident İlham Əliyevin iştirakı ilə mayın 28-də Ağdamda Sənaye Parkının təməlinin qoyulması isə işğaldan azad olunmuş ərazilərin iqtisadi potensialının hərəkətə gətirilməsi üçün atılan ilk addım oldu. Sənaye Parkı qida sənayesi, kiçik sənaye və xidmət, iri sənaye müəssisələri, sosial və texniki zonalar, TIR parkı, tikinti materiallarının satışı bazası hissələrinə bölünəcək. Burada tikinti materiallarının istehsalı müəssisələrinin yaradılması, kənd təsərrüfatı məhsullarının qablaşdırılmasının, meyvə-tərəvəz konservlərinin, ət və süd məhsullarının, şərab, yem, gübrə istehsalı və emalının, eyni zamanda, xidmət sahələrinin, soyuducu kameraların təşkili də planlaşdırılır.**

İşğaldan azad olunmuş ərazilərin müqayisəli üstünlükləri əsasında 4 regional mərkəzin yaradılması nəzərdə tutulub. Ağdamda sənaye mərkəzi, Cəbrayılda logistika və ticarət mərkəzi, Şuşada mədəniyyət və turizm mərkəzi, Kəlbəcərdə hasilat və turizm mərkəzi yaradılacaq. Ağdamda yaradılacaq sənaye mərkəzində ilkin müraciətlər əsasında 33 kiçik istehsal və xidmət müəssisəsi, iri sənaye və qida sənayesi müəssisələri fəaliyyət göstərəcək. Buraya 110 milyon manata yaxın sərmayə qoyulacaq, 330 iş yeri açılacaq. Ağdamın strateji coğrafi mövqeyi, digər bölgələrlə qovuşuqda yerləşməsi, insan resursları potensialı və infrastruktura çıxış imkanları rayonun gələcəkdə Qarabağın sənaye mərkəzinə çevrilməsi imkanlarını genişləndirir.

Ötən ay Azərbaycan Televiziyasına müsahibəsində Prezident İlham Əliyev bütün şəhərlərin baş planlarının hazırlandığını və bunun, ilk növbədə, Ağdam şəhərini əhatə edəcəyini bildirmişdi. May ayının 28-də Ağdamda şəhərin Baş planının təqdimatı oldu. «Bu gün Respublika Gününü biz Ağdamda, Ağdam şəhərində qeyd edirik. Bunun çox böyük rəmzi mənası var. Ağdam şəhərinin Baş Planı bu gün təsdiq ediləcək. Bu Baş Plan mənə təqdim edilmişdir. Biz bir müddət bu plan üzərində işləyirdik və istərdim ki, Ağdam rayonunun tanınmış şəxsləri Baş Planla tanış olsunlar, öz fikirlərini bildirsinlər və sizin iştirakınızla biz bu gün bu gözəl mərasimi keçirək. Bu mərasim üçün, bu görüş üçün başqa vaxt da müəyyən oluna bilərdi. Ancaq mən hesab etdim ki, ən düzgün tarix bizim milli bayramımız olan Respublika Günüdür, müstəqillik günüdür. Çünki bu gün burada olmağımız bir daha müstəqilliyimizin nə qədər güclü olmasını göstərir. Əgər biz güclü müstəqil dövlət qurmasaydıq, öz tarixi torpaqlarımızı işğalçılardan azad edə bilməzdik. Ancaq güclü Azərbaycan, müstəqil Azərbaycan, sözün əsl mənasında, müstəqil siyasət aparan Azərbaycan bu tarixi missiyanı şərəflə yerinə yetirdi. Ağdam şəhərinin bərpasının başlanğıcı bu gün baş verir, Respublika Günündə. Əminəm ki, bütün nəzərdə tutulmuş planlar Baş Plan əsasında icra ediləcək və Ağdam şəhəri yenidən qurulacaq», - deyə Prezident İlham Əliyev Ağdamda rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdə bildirmişdir.

Dövlət başçısı Ağdam rayonunun işğal altında olduğu dövrdə oraya doqquz dəfə səfər etdiyini xatırlatdı. Həmin ərazi ilə bağlı bir çox tədbirlər keçirilmişdir. Regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrası nəticəsində Ağdam rayonunun quruculuqla bağlı inkişaf planları təsdiq edilmişdir. Burada bir çox sosial layihələr icra edildi, məktəblər, Muğam Mərkəzi, uşaq xəstəxanası, mərkəzi rayon xəstəxanası, Olimpiya Mərkəzi, infrastruktur layihələri icra edildi. Əhali təbii qazla, elektrik enerjisi, su ilə təmin edilmiş, 150-dən çox artezian quyusu qazılmışdır. İşğal dövründə Ağdam rayonunun inkişafı ilə bağlı çox ciddi addımlar atılmışdır. Dövlətimizin başçısı Ağdamdan olan məcburi köçkünlərlə dəfələrlə görüşlər zamanı demişdir ki, torpaqlarımız, o cümlədən Ağdam şəhəri və bütün rayon azad olunandan sonra buralar cənnətə çevriləcək, daha gözəl şərait yaradılacaq. Müstəqillik günü təqdim edilən Ağdam şəhərinin baş planı verilən vədlərin məntiqi nəticəsi oldu. Dövlətimizin başçısı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşü zamanı bir daha vurğuladı ki, biz elə bir şəhər quracağıq, elə bir Ağdam quracağıq ki, bütün dünya üçün örnək olacaqdır.




**Xatırladım ki, Ağdamda ilkin olaraq işğal dövründə ermənilər tərəfindən dağıdılmış tikililərin söküntüsü həyata keçirilib. Mayın 28-də isə Ağdamda ilk yaşayış binasının təməli qoyuldu. Binanın fasadında Ağdamın yerli ağ daşından və Avropa memarlıq elementlərindən istifadə ediləcək. Mənzillər 1, 2, 3, 4 və 5 otaqlı olacaq.**

Prezident İlham Əliyevin ötən ilin noyabrından işğaldan azad olunmuş ərazilərə səfərlər zamanı həmin ərazilərdə aparılan quruculuq işləri çərçivəsində inşa edilən yeni strateji obyekt və müəssisələrin təməlini qoyması həm siyasi, həm iqtisadi, həm də mənəvi cəhətdən mühüm əhəmiyyət kəsb edir. Bu, bir daha göstərir ki, Azərbaycan dövləti işğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulması ilə bağlı bütün ideya və planlarını sürətlə reallaşdırmağa qadirdir. Xüsusilə qeyd edilməlidir ki, müharibədən çıxmış bir dövlətin pandemiya şəraitində, dünya iqtisadiyyatında böyük problemlərin yarandığı bir dövrdə işğaldan azad olunan ərazilərdə "ağıllı şəhər", "ağıllı kənd" konsepsiyalarını reallaşdırması, şəhərlərin bərpasına start verməsi bir daha ölkəmizin gücünü və qüdrətini nümayiş etdirir.

Azərbaycanın İkinci Qarabağ müharibəsindəki parlaq hərbi-siyasi zəfəri işğaldan azad olunan ərazilərimizə yeni nəfəs verdi. İndi bu torpaqlarda həyat canlanmağa başlayır, qurumuş bulaqlar yenidən çağlayır. Ermənistanın işğal dövründə dağıtdığı, talan etdiyi şəhər və rayonlarımız Prezident İlham Əliyevin xüsusi nəzarəti ilə kompleks şəkildə bərpa olunur, yenidən qurulur. Bu məsələdə də ölkə ictimaiyyəti ilk gündən Prezident İlham Əliyevin qətiyyətini görməkdədir.

**"İqtisadiyyat"**

# Türkiyəyə indiyədək "Şahdəniz" yatağından 81,7 milyard kubmetr təbii qaz nəql olunub

İndiyə qədər qaz kəmərləri ilə Türkiyəyə "Şahdəniz" yatağından 81,7 milyard kubmetr təbii qaz nəql edilib.

Bu barədə Energetika naziri Pərviz Şahbazov deyib.

Qeyd edək ki, bu il "Şahdəniz" öz 25 illiyini qeyd edir. "Şahdəniz" yatağı üzrə hasilatın pay bölgüsü haqqında saziş (HPBS) 25 il bundan əvvəl, 1996-cı il iyunun 4-də Bakıda SOCAR və xarici şirkətlərin konsorsiumu arasında imzalanıb və Milli Məclis tərəfindən ratifikasiya edilərək, həmin il oktyabrın 17-də qüvvəyə minib.

"Şahdəniz" üçün HPBS ilkin olaraq 30 il müddətinə imzalanıb, 2013-cü ilin dekabrında isə 2048-ci ilə qədər uzadılıb. "Şahdəniz" üzrə iştirak payları belədir: BP (operator – 28,8 faiz), TPAO (19 faiz), "Petronas" (15,5 faiz), AzŞD (10 faiz), "LUKoil" (10 faiz), "Nico" (10 faiz) və Cənub Qaz Dəhlizi Apstrim (6,7 faiz).

Yataq 1999-cu ildə kəşf edilib. Yatağın işlənməsinin növbəti mərhələsi, yəni "Şahdəniz-2" 2013-cü ildə təsdiqlənib. Layihə çərçivəsində CQBK də genişləndirilmiş və Azərbaycanda 428 kilometr, Gürcüstanda isə 59 kilometr yeni boru kəməri, o cümlədən qazın Avropaya doğru 3500 kilometrlik məsafəni qət etməsi üçün 3 yeni kompressiya obyektləri inşa edilib.

Hasilatın planlaşdırılan ən yüksək sabit səviyyəsində, "Şahdəniz-2" layihəsi çərçivəsində ildə 16 milyard kubmetr qaz hasil olunacaq. Yatağın işlənməsinin birinci mərhələsindən əldə olunan hasilat həcmi ilə birlikdə "Şahdəniz" yatağından ümumi hasilat ildə 26 milyard kubmetr qaz və gündə 100 min barelədən çox kondensat təşkil edəcək.



# «Union Kredit» ASC-nin 31 dekabr 2020-ci il tarixinə BALANS HESABATI

| *Azərbaycan Manatı ilə* | Qeyd | 31 dekabr 2020-ci il | 31 dekabr 2019-cu il |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 6 | 1712.33 | 105162.98 |
| Müştərilərə verilmiş kreditlər və avanslar | 7 | 103215.24 | 152963.17 |
| Əmlak və avadanlıqlar | 8 | 1060.11 | 1325.14 |
| Qeyri-maddi aktivlər | 8 | 11614.97 | 14935.74 |
| Digər aktivlər | 9 | 92280.85 | 93599,69 |
| Təxirə salınmış vergi aktivi | 15 | 1370.44 | 3877.28 |
| **Cəmi aktivlər** | | **211,254** | **371,864** |
| **Öhdəliklər** | | 208837.62 | 139261.64 |
| Digər maliyyə öhdəliklər | 10 | 954.38 | 1246.01 |
| **Cəmi öhdəliklər** | | **209,792** | **140,508** |
| **Kapital** | | | |
| Nizamnamə kapitalı | 11 | 451,800 | 451,800 |
| Yığılmış zərər | | (450,338) | (220,444) |
| **Cəmi kapital** | | **1,462** | **231,356** |
| **Cəmi öhdəliklər və kapital** | | **211,254** | **371,864** |

| *Azərbaycan Manatı ilə* | Qeyd | 31 dekabr 2020-ci il tarixində bitən il üzrə | 31 dekabr 2019-cu il tarixində bitən il üzrə |
|---|---|---|---|
| Faiz gəlirləri | 12 | 8561 | 30,485 |
| Faiz xərcləri | 12 | 44.0 | - |
| **Xalis faiz gəlirləri** | | **8517** | **30,485** |
| Faiz yaradan aktivlərin dəyərsizləşməsi üzrə ehtiyat | 7 | (39,118) | |
| **Ehtiyat ayırmalarından sonra xalis faiz gəlirləri** | | **(30,601)** | |
| Haqq və komissiya xərcləri | 13 | (964) | (1099.44) |
| İnzibati və digər əməliyyat xərcləri | 14 | (198,329) | (44695.63) |
| **Vergidən əvvəlki zərər** | | **(229,894)** | **(45795.07)** |
| Mənfəət vergisi gəliri | 15 | - | - |
| **İl üzrə xalis zərər** | | **(229,894)** | **(76279.80)** |
| **İl üzrə sair məcmu gəlirlər** | | **-** | **-** |
| **İl üzrə cəmi zərər və sair məcmu gəlirlər** | | **(229,894)** | **(76279.80)** |

| *Azərbaycan Manatı ilə* | Qeyd | 31 dekabr 2020-ci il | 31 dekabr 2019-cu il |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitlərinin axını** | | | |
| **Vergidən əvvəlki zərər** | | **(229,894)** | **(76279.80)** |
| Düzəlişlər: | | | |
| Faiz yaradan aktivlərin dəyərsizləşməsi üzrə ehtiyat | 7 | 99472.85 | 62100.40 |
| Amortizasiya və köhnəlmə xərcləri | 8 | 2081.14 | 2062.70 |
| Faiz gəlirləri | | | |
| Faiz xərcləri | | 44.00 | 30484.73 |
| **Əməliyyat aktiv və öhdəliklərində dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitlərinin axını** | | | |
| Müştərilərə verilmiş kreditlər və avanslarda xalis azalma | 7 | 49747.93 | 42370.86 |
| Digər aktivlərdə xalis azalma/(artım) | 9 | 291.63 | 91466.13 |
| Digər maliyyə öhdəliklərdə xalis artım | 10 | 70000.00 | 139261.61 |
| Alınacaq faiz gəlirləri | | | |
| Ödəniləcək faiz xərcləri | | - | 2807.05 |
| **Əməliyyat fəaliyyətinə yönəlmiş xalis pul vəsaitləri** | | | |
| **İnvestisiya fəaliyyətindən daxil olan pul vəsaitlərinin axını** | | | |
| Qeyri maddi aktivlərin alınması | 8 | - | - |
| Əsas vəsaitlərin satışı | | - | - |
| **İnvestisiya fəaliyyətinə yönəlmiş xalis pul vəsaitləri** | | **-** | **-** |
| **Maliyyələşdirmə fəaliyyətindən daxil olan pul vəsaitlərinin axını** | | | |
| Müddətli borc öhdəliklərində xalis azalma | | - | - |
| Ödənilmiş dividend | | - | - |
| **Maliyyə fəaliyyətinə yönəlmiş xalis pul vəsaitləri** | | **-** | **-** |
| ***Məzənn11ə fərqlərinin pul vəsaitləri və onların ekvivalentlərinə təsiri*** | | **-** | **-** |
| **Pul vəsaitləri və onların ekvivalentlərində xalis artma/(azalma)** | | **103450.65** | **119029.44** |
| **İlin əvvəlinə pul vəsaitləri və onların ekvivalentləri** | 6 | **105162.98** | **224192.42** |
| **İlin sonuna pul vəsaitləri və onların ekvivalentləri** | 6 | **1712.33** | **105162.98** |

| *Azərbaycan Manatı ilə* | Nizamnamə Kapitalı | Bölüşdürülməmiş mənfəət/ (Yığılmış zərər) | Cəmi kapital |
|---|---|---|---|
| **31 dekabr 2018-ci il tarixinə qalıq** | **451,800** | **(144,164)** | **307,636** |
| **31 dekabr 2019-cu il tarixinə qalıq** | **451,800** | **(220,444)** | **231,356** |
| 2020-ci il üzrə məcmu zərər | **-** | (229,894) | (229,894) |
| **31 dekabr 2020-cu il tarixinə qalıq** | **451,800** | **(450,338)** | **1,462** |

## Maliyyə hesabatlarının auditinə dair hesabat

**Rəy**

Mən BOKT "Union Kredit" Açıq Səhmdar Cəmiyyətinin (bundan sonra - şirkət) 31 dekabr 2020-ci il tarixinə maliyyə vəziyyəti haqqında hesabatdan, məcmu gəlirlər haqqında hesabatdan, kapitalda dəyişikliklər hesabatından və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışam.

Hesab edirəm ki, qoşma maliyyə hesabatları Şirkətın 31 dekabr 2020-ci il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir.

**Rəy üçün əsaslar**

Mən auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışam. Bu standartlar üzrə mənim məsuliyyətlərim əlavə olaraq hesabatımın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Mən Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Peşəkar Mühasiblərin Etika Məcəlləsinin" (IESBA) tələblərinə uyğun olaraq Şirkətdən asılı deyiləm və mən digər etik öhdəliklərimizi IESBA məcəlləsinin tələblərə uyğun yerinə yetirmişəm. Mən hesab edirəm ki, əldə etdiyim audit sübutları rəyimi əsaslandırmaq üçün yetərli və münasibdir.

***Fəaliyyətin fasiləsizliyinə dair əhəmiyyətli qeyri-müəyyənlik***

*Mən diqqəti BOKT "Union Kredit" Açıq Səhmdar Cəmiyyətinin maliyyə hesabatlarına dair izahedici qeydlərində olan koronavirus infeksiyasının yayılması şəraitində və bunun iqtisadi nəticələri ilə bağlı şirkətin fəaliyyətinin davam etdirilməsinə dair qeyri-müəyyənlik faktorlarına yönəltmək istərdim. İzaedici qeydlərdə hazırki şəraitdə BOKT "Union Kredit" Açıq Səhmdar Cəmiyyətinin öz fəaliyyətinin fasiləsizliyini təmin etmək sahəsində əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olması göstərilmişdir. Bu şəraitlə əlaqədar mən öz mülahizələrimə dəyişikliklər etməmişəm.*

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının İFRS (Beynəlxalq Maliyyə Hesabatları Standartlarına) uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Şirkətı ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Şirkətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Şirkətin maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Mənim məqsədim maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkarlayır. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

**BAS-ların tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi mən audit aparılan zaman peşəkar mühakimə tətbiq edirəm və peşəkar inamsızlıq nümayiş etdirirəm. Mən həmçinin:**

- Maliyyə hesabatlarında dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflər risklərini müəyyən edib qiymətləndirirəm, bu risklərə cavab verən audit prosedurlarını layihələndirib həyata keçirirəm və rəyimi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirəm. Dələduzluq nəticəsində əhəmiyyətli təhrifi aşkarlamamaq riski səhvlər nəticəsindəkindən daha yüksəkdir, çünki dələduzluq sözləşmə, saxtakarlıq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər.
- Şirkətin daxili nəzarətin səmərəliliyinə dair rəy bildirmək məqsədi üçün olmamaq şərtilə, bu şəraitlərdə uyğun olan audit prosedurlarını layihələndirmək üçün auditə aid daxili nəzarəti başa düşürəm.
- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məntiqliliyini qiymətləndirirəm.
- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə ediməsinin uyğunluğuna və əldə edilən audit sübutlarının əsasında Şirkətin fəaliyyətini fasiləsiz davam etmək imkanını ciddi şübhə altına qoya bilən hadisələrlə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığında dair nəticə çıxarıram. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığım halda, auditor hesabatımda maliyyə hesabatlarındakı əlaqəli əlumatların açıqlanmasına diqqət yetirməliyəm və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimə dəyişiklik etməliyəm. Nəticələrim auditor hesabatımın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Lakin sonrakı hadisələr və ya şəraitlər Şirkətin fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər.
- Məlumatların açıqlanması da daxil olmaqla, maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin maliyyə hesabatlarında ədalətli təqdim edilib-edilmədiyini qiymətləndirirəm.

Mən subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddətləri, habelə əhəmiyyətli audit sübutları, o cümlədən audit apardığım zaman daxili nəzarətdə aşkar etdiyim əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat veririrəm.

Mən həmçinin subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə bəyanat verirəm ki, müstəqilliyə və müstəqilliyimə təsir etməsi əsaslandırılmış şəkildə güman edilən bütün əlaqələr və digər məsələlərə, habelə müvafiq olduğunda əlaqəli qorunma tədbirləri haqqında məlumat verməyimə dair müvafiq etik normalarına riayət etmişəm.

Şirkətin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin nəzərinə çatdırılmış məsələlərdən mən cari dövr üzrə maliyyə hesabatlarının ən əhəmiyyətli və bu səbəbdən əsas audit məsələləri olanları müəyyən edirəm. Bu məsələnin ictimaiyyətə açıqlanmasına qanun və ya qaydalarla yol verilmədiyi halda və ya, çox nadir hallarda, məsələ haqqında hesabatda məlumat verməinin mənfi təsirlərinin onun ictimaiyyət üçün faydalarından çox olacağı əsaslandırılmş şəkildə güman edildiyinə görə mən bu məsələ haqqında hesabatımda məlumatın verilməməsini qərara almadığım halda, mən bu məsələləri auditor hesabatında təsvir edirəm.

**Sərbəst Auditor**
**Əliyev Natiq Firuddin oğlu**

**Bakı şəhəri,**
**Azərbaycan Respublikası**
**27 may, 2021-ci il**

## Beş ayda Gömrük Komitəsi büdcəyə 1,6 milyard manat köçürüb



Yanvar-may aylarında Dövlət Gömrük Komitəsi tərəfindən dövlət büdcəsinə daxilolmalar 1 milyard 662 milyon 20 min manat olub.

Komitədən bildirilib ki, beş ayda gömrük rüsumları üzrə dövlət büdcəsinə daxilolmalar 453 milyon 290 min manat, əlavə dəyər vergisi üzrə 1 milyard 129 milyon 481 min manat, aksizlər üzrə 62 milyon 146 min manat, yol vergisi üzrə isə 17 milyon 97 min manat təşkil edib.

* * * *

Mayda Dövlət Gömrük Komitəsi tərəfindən dövlət büdcəsinə daxilolmalar 347 milyon 635 min manat olub.

Komitədən bildirilib ki, keçən ay gömrük rüsumları üzrə dövlət büdcəsinə daxilolmalar 92 milyon 735 min manat, əlavə dəyər vergisi üzrə 240 milyon 679 min manat, aksizlər üzrə 11 milyon 2 min manat, yol vergisi üzrə isə 3 milyon 217 min manat təşkil edib.

## Vergi orqanlarının sahibkarlığa dəstək sahəsində əməkdaşlığına dair müzakirələr aparılıb



Dövlət Vergi Xidmətinin Tədris Mərkəzində Mərkəzi Aparatın əməkdaşlarının iştirakı ilə ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAID) biznes mühitinin inkişafı üzrə meneceri Elsəvər Quliyevlə görüş keçirilib.

Dövlət Vergi Xidmətindən verilən məlumata görə, tədbirdə agentliklə dövlət vergi orqanları arasında sahibkarlığa dəstək sahəsində əməkdaşlıq məsələləri müzakirə olunub.

Tədris Mərkəzinin rəisi vəzifəsini icra edən Mirəli Kazımov işğaldan azad olunmuş ərazilərdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinə dəstək layihələrinin əhəmiyyətini vurğulayaraq, rəhbərlik etdiyi qurumun ümumi fəaliyyət istiqamətləri barədə ətraflı məlumat verib.

Görüşdə, həmçinin vergi orqanları tərəfindən beynəlxalq təcrübənin öyrənilməsi və elmi araşdırmaların aparılması istiqamətində USAID ilə Tədris Mərkəzinin əməkdaşlıq istiqamətləri və digər maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Qeyri-neft ixracı 25,4 faiz artıb

Cari ilin yanvar-may ayları ərzində Azərbaycanın ixracı 8 milyard ABŞ dolları, qeyri-neft sektoru üzrə isə 907,6 milyon dollar təşkil edib. Qeyri-neft sektoru üzrə ixrac ötən ilin müvafiq dövrü ilə müqayisədə 184 milyon dollar və ya 25,4 faiz artıb.

5 ayda meyvə-tərəvəz ixracı 206,1 milyon, pambıq lifi ixracı 109,3 milyon, alüminium və ondan hazırlanan məmulatların ixracı 57,9 milyon, qara metallar və onlardan hazırlanan məmulatların ixracı 39,7 milyon, pambıq ipliyi ixracı 17,8 milyon, kimya sənayesi məhsullarının ixracı 19,2 milyon, şəkər ixracı 16,3 milyon, bitki heyvan mənşəli piylər və yağların ixracı 13,8 milyon, spirtli və spirtsiz içkilərin ixracı 5,8 milyon və çay ixracı 3,7 milyon dollar təşkil edib.

May ayında Azərbaycanın ümumi ixracı 1,6 milyard dollar, qeyri-neft sektoru üzrə ixrac 210,5 milyon dollar olub. Qeyri-neft sektoru üzrə ixrac ötən ilin may ayı ilə müqayisədə 22 faiz və ya 38 milyon dollar daha çoxdur. Habelə 2021-ci ilin qeyri-neft sektorunun tərkibi üzrə yeyinti məhsullarının ixracı 85,4 milyon dollar, qeyri-yeyinti məhsulları üzrə isə 125,1 milyon dollar olub.

Ötən ay yeyinti məhsullarının ixracında azalma müşahidə edilsə də, qeyri-yeyinti məhsullarının ixracında ötən ilin eyni ayı ilə müqayisədə 55,8 faiz artım müşahidə edilib. Qeyri-yeyinti məhsullarının may ayı üzrə artımını şərtləndirən əsas hərəkətverici qüvvələr gübrə, yeyinti sənayesinin qalıqları və tullantıları; heyvanlar üçün hazır yemlər, pambıq, qara metallar, qurğuşun və alüminium və onlardan hazırlanan məmulatlar, yerüstü nəqliyyat vasitələri, dəmir yolu və tramvay nəqliyyat vasitələrindən başqa və onların hissələri və ləvazimatları və sair təşkil edib. May ayında yeyinti məhsullarında azalmanın əsas səbəbi meyvə-tərəvəz məhsullarının ixracının azalmasıdır.

# "Mətanət A" şirkətinin "20 İllik Uğuru və Gələcək Perspektivləri" haqqında şirkətin rəhbəri Elxan Bəşirovun müsahibəsi




Azərbaycanda qeyri-neft sektorunun inkişafı, qeyri-neft ixracının həcminin artırılması ölkəmizdə son illər həyata keçirilən iqtisadi siyasətin əsasını təşkil edir. Bu uğurlu siyasətin nəticəsi olaraq son 20 ildə qeyri-neft sektorunda 3 dəfəyə yaxın artım qeydə alınıb. Müasir dövrün çağırışlarına uyğun olaraq son vaxtlar ölkəmizin daha da güclənməsinə yönələn ciddi islahatlar həyata keçirilir. İstər istehsal prosesləri, istərsə də idarəetmədə daim yeniliklərin carçısı olan "Mətanət A" şirkəti də bu dəyişikliklər dalğasından kənarda qalmayıb. "20 İllik Uğur və Gələcək Perspektivlər" haqqında Şirkətin Müşahidə Şurasının sədri Elxan Bəşirovun müsahibəsini Sizə təqdim edirik.

**- Salam Elxan müəllim!**
**Geridə qoyduğumuz 20 il "Mətanət A" şirkəti üçün hansı uğurlarla yadda qaldı?**

- Geridə qoyduğumuz bu 20 ildə Azərbaycan inşaat materialları istehsalı sektorunda bir çox uğurlar qazandıq, sektorda inşaat problemlərinin həlli üçün innovativ məhsullar təqdim etdik. Bu gün 3 sistemdə, 24 mal qrupunda fəaliyyət göstərməklə 200-dən çox ticarət markasına və 1000-dən artıq məhsul çeşidi istehsalına müvəffəq olmuşuq. "Mətanət A", "AĞDAĞ", "FasNatural", "ROKOL", "Qraniyap", "PARAKONTAKT", "İzolatex", "FasMazaik", "Parmaket" "Parmawood", "Azerlime" və s. çoxsaylı innovativ məhsul brendlərimizi istehlakçılara təqdim etdik. "Mətanət A" sement əsaslı quru inşaat qarışıqları istehsalı zavodu, "AĞDAĞ" gips əsaslı məhsulların istehsalı zavodu kimi bir çox yeni zavodlar istifadəyə verildi. O cümlədən 2020-ci ildə Cənab Prezident İlham Əliyevin iştirakı ilə Qazax rayonunda AZERLİME Əhəng zavodunun açılışı ilə ölkəmizdə daha yeni bir zavod fəaliyyətə başladı. Bəşəriyyət 2020-ci il tarixini pandemiya ilə mübarizə ili kimi yadda saxlasa da, ötən il başda Ali baş Komandan Cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin ərazi bütövlüyünün bərpası və "Zəfər ili" kimi tarixdə qaldı.

**- Elxan müəllim, 2021-ci ilin artıq 5 ayını geridə qoyduq, inşaat mövsümünün növbəti ayları üçün gözləntiləriniz necədir? Ümumiyyətlə şirkətin yaxın perspektiv üçün nə kimi planları var?**

- İnşaat sektorunda daim ilklərə imza atan "Mətanət A" şirkəti bu il də müxtəlif layihələr həyata keçirməyi planlaşdırır. Bu il məhsul çeşidimizin artırılması ilə yanaşı, bəzi məhsullarımıza brend olaraq artıq yeni nəfəs vermişik. Bunlara Rokol boyaları, Mirvana boyası, Venestro boyası, Akdeniz keramika yapışdırıcısı və s. kimi bir çox məhsullarımız nümunədir. İllər keçdikcə nəsillər yenilənir və bu baxımdan məhsullarımızı da həm tərkib baxımından, həm də brend baxımından yeni nəslin tələblərinə uyğunlaşdırmaq qəbul edilən strategiyamızın mühüm bir parçasını təşkil edir. Eləcə də istehsal sahələrini genişləndirmək, bazara yeni məhsullar çıxarmaq, yeni bazarlar yaratmaq, müştəri məmnunluğunun daha da artırılması əsas hədəflərimizdəndir. Əlbəttə, bütün bunları etmək, reallaşdırmaq indiki pandemiya şəraitində çətin görsənə bilər. Lakin qeyd etməliyəm ki, ölkəmizdə sahibkarlıq fəaliyyətinininin inkişafı daim Cənab Prezident İlham Əliyevin diqqət mərkəzində olmuşdur. Məhz bu faktor bizə əlavə güc və stimul verir. Bu il üçün əsas hədəf və prioritetlərimizdən biri də AĞDAĞ gips-karton lövhələrinin istehsalı zavodunun fəaliyyətə başlamasıdır. Qeyd edim ki, digər zavodlarda olduğu kimi, bu zavodumuzda da Avropanın, Almaniyanın müasir istehsal texnologiyaları tam tətbiq edilmişdir. Artıq daha keyfiyyətli, eyni zamanda, istehlakçılar üçün səmərəli olacaq gips-karton lövhələrinin istehsalına başlanılmışdır. Paralel olaraq isə daş yunu istehsalı zavodunun tikintisini davam etdiririk.

**- Elxan müəllim, istehsal etdiyiniz tikinti materiallarının xarakteristikası ilə tanış olduqca bu məhsulların hamısında həm ekoloji təmizlik anlayışı, həm də müasir standartların tətbiqi ön plana çıxır. Bu haqda fikirlərinizi öyrənmək istərdik.**

- Düşünürəm ki, hər bir fəaliyyətdə ilk növbədə faydalılıq prinsipi əsas götürülməlidir və şirkətin hazırladığı məhsulun dəyəri də onun faydalılığına görə müəyyən edilməlidir. Eyni zamanda, ekoloji sağlam məhsulların istehsal edilməsi, müasir inşaat texnologiyalarının ölkəmizə gətirilməsi, sektorda beynəlxalq standartların ilk olaraq tətbiq edilməsi bizim ümumi strategiyamızda prioritetdir. "Mətanət A" şirkəti təsis edildiyi gündən ekologiyanın, ətraf mühitin qorunması şirkət üçün önəmli faktor olub. Təsadüfi deyil ki, şirkətin korporativ rəngi də təbiətin rəngi – yaşıl rəngdir. Şirkət istehsal proseslərində "dünyanı xilas edən" texnologiya kimi tanınan "Green Technology" tətbiq edir. Nanotexnologiyaların tətbiqi sayəsində "Yaşıl Biznes" siyasətinə uyğun olaraq ətraf mühitə dəyən zərərin miqdarı minimuma endirilib, enerji sərfiyyatına qənaət etmək imkanları yaranıb. Eyni zamanda, biz artıq EN 12004 kimi beynəlxalq keyfiyyət standartlarının C1TE, C1T, C1, C2T, C2TE siniflərinə uyğun məhsullar istehsal edirik. Bu isə o deməkdir ki, bizim istehsal etdiyimiz məhsullar Avropa bazarlarında istehsal edilən məhsullarla rəqabət aparmaq qabiliyyətinə malikdirlər. Məhz istehlakçılar, inşaat mühəndisləri, ustalar da əminliklə bizim məhsullardan istifadə etməklə əsl keyfiyyət faktorunu və fərqini görə bilərlər. Xammallarda Nanotexnoloji zərrəciklər dolduruculara adsorpsiya olunması nəticəsində unikal yapışdırıcı alınır, üzlük plitələr qopmur. Bunun nəticəsidir ki, "Kiçik molekul, böyük fərq yaradır"! devizi bizim fəaliyyətimizin nəticəsini praktiki əks etdirmişdir. Şirkətin əsas keyfiyyət fərqi məhz bunun üzərində qurulub.

**- Bildiyimiz kimi "Mətanət A" şirkətinə aid zavodlarda istehsal müasir texnologiyalar əsasında həyata keçirilir. Bu cür müasir avadanlıqlarda çalışacaq kadrlarınız varmı?**

- Biz həmişə qürurla bildiririk ki, Azərbaycanda inşaat materiallarının istehsalı sahəsində nanotexnologiyalar ilk dəfə olaraq "Mətanət A" şirkətində tətbiq edilib. Bu səbəbdəndir ki, Şirkət 2014-cü ildə "Tikinti Materiallarının istehsalında İnnovasiyaların tətbiqinə görə" dövlət mükafatına layiq görülmüşdür. Şirkət həmçinin Müassir İT texnologiyaların tətbiqi üzrə 2012-ci ildə MDB-də ilk dəfə ABŞ-ın nüfuzlu Hewlett-Packard (HP) IT Club şirkəti tərəfindən "The Best Company- Ən Yaxşı Şirkət" diplomunu əldə etmişdir. Nanotexnologiyaların tətbiqi, eyni zamanda, ətraf mühitin qorunmasında da mühüm rola malikdir. Artıq bir neçə ildir ki, SMART texnologiyasının tətbiqi ilə istehsal prosesi tam robotlaşdırılmış fəaliyyət metoduna keçib. Rəqəmsal ticarət alətlərindən geniş istifadə imkanlarını artırmışıq. Əlbəttə ki, Azərbaycanda yüksəkixtisaslı kadrlar çoxdur. Biz insan resurslarının inkişafı sahəsində son illərdə bir çox xarici proqramlar təşkil etdik. Xarici ölkələrdən əldə olunan texnologiyaların daha da dərindən mənimsənilməsi üçün əməkdaşlarımıza avadanlıqların gətirildiyi həmin ölkələrin mütəxəssisləri tərəfindən təlimləndirmə prosesini həyata keçiririk. Bu vasitə ilə şirkətimizdə çalışmış gənclər beynəlxalq təcrübəyə yiyələnməklə yanaşı, yeni bilik və bacarıqlara da sahib olurlar. Eyni zamanda, universitetlərlə bu istiqamətdə sıx əməkdaşlığımız mövcuddur. Pandemiya müddətindən əvvəl hər il onlarla tələbə müxtəlif istiqamətlər üzrə şirkətimizdə təcrübə proqramına cəlb edilmişdir. Onlardan əməkdaş kimi qalıb işləyənlər də mövcuddur. Pandemiya dönəmində isə onlayn iş rejimində operativlik və çevik qərarların verilməsi üçün bir çox islahatlar aparılmış və əməkdaşlarımızda idarəetmə vərdişlərinin daha da inkişaf etdirilməsinə nail olmuşuq.

**- Mətbuatda "İşğaldan azad ediləcək ərazilərdə "Mətanət A" şirkəti zavod tikəcək" başlıqlı məlumatlar yayılmışdır. Bu layihənin icrası il bağlı nələri qeyd etmək istərdiniz?**

- Düzgün vurğuladınız. Hələ Vətən müharibəsi başladığı andan cəbhədə baş verən prosesləri şirkət olaraq yaxından izləyirdik. Döyüşdə onlarla əməkdaşımız iştirak etmiş və bir əməkdaşımız Zəngilan uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Hər bir azərbaycanlı kimi biz də müharibə dönəmində Silahlı qüvvələrimizə maddi və texniki dəstəyimizi təqdim etmişik. İşğaldan azad olunmuş ərazilərdə Cənab Prezident İlham Əliyevin başçılıq etdiyi quruculuq, abadlıq işlərinə biz də töhfəmizi vermək istəyirik. Bu istiqamətdə iqtisadiyyatın inkişafına dəstək olunması üçün yeni zavodun tikilməsini hədəfləmişik. Məlum olduğu kimi, Qarabağ regionu inşaat materiallarının istehsalı sahəsində bol təbii sərvətlərlə zəngin ehtiyatlara malik torpaqlardır. Bu torpaqları uzun müddət düşmən korlamağa çalışmış və ekoloji terror törədərək, ətraf mühitə külli miqdarda ziyan vurmuşdur. Lakin biz bu ərazilərdə yeni ekoloji təmiz məhsulların istehsalını hədəfləyən zavod tikməklə həm iqtisadiyyata müəyyən töhfəmizi vermiş oluruq, həm də buraya geri qayıdan vətəndaşlarımız üçün yeni iş imkanlarının təqdim edilməsi baxımından məşğulluğun təmin edilməsinə dəstək olmağı planlaşdırmışıq. Zavodun tikilməsi ilə bağlı torpaq sahəsinin ayrılması üçün dövlət qurumlarına müraciət olunmuşdur. Müraciətlərə müsbət yanaşılarsa, öz üzərimizə götürülən öhdəlikləri vaxtında həyata keçirəcəyik.

**- Elxan müəllim, bir daha Sizə və kollektivinizə bol-bol uğurlar arzu edir və maraqlı söhbətiniz üçün minnətdarlığımızı bildiririk.**

# Microsoft bir sıra xidmətlərini Azərbaycan dilinə lokallaşdırdı

Microsoft Teams onlayn əməkdaşlıq və təhsil platformasının lokallaşdırılması Microsoft korporasiyasının tətbiq və xidmətlərinin Azərbaycan dilində əlçatan olması istiqamətində ilk addımdır.

Belə ki, bu yaxınlarda Azərbaycan dili şirkətin Microsoft Translator apps, Office, Translator for Bing, eləcə də biznes və developerlər üçün nəzərdə tutulan Azure Cognitive Services Translator kimi bütün əsas tətbiq və xidmətlərində mövcud oldu.

Pandemiya fonunda Microsoft Teams Azərbaycan təhsil sistemində onlayn dərslərin təşkili üçün əsas alətə çevrilib. Bu platforma təhsil sisteminə inteqrasiya olunaraq, orta təhsil müəssisələrinin təqribən 1,4 milyon müəllim, tələbə və şagirdləri üçün təşkilati və tədris proseslərini sadələşdirmişdir.

İstifadəçilərin daha yüksək zirvələrə çatması üçün, hər il 21 Fevralda Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət Təşkilatı (UNESCO) tərəfindən qeyd olunan Beynəlxalq Ana Dili Günü ərəfəsində Microsoft Translator apps, Office, Translator for Bing, həmçinin Azure Cognitive Services Translator kimi tətbiq və xidmətlər Azərbaycan dilində tam əlçatan oldu.

Süni intellektlə işləyən Microsoft Translator mətn, səs və şəkilləri dəstəkləyir. Onun vasitəsilə avtomatik olaraq tərcümə etmək və birdən çox istifadəçi ilə danışıqları səsləndirmək mümkündür. Bundan əlavə, bu həll nitq tanıma qabiliyyətinə malikdir və doqquz yeni dilin əlavə edilməsi ilə, Microsoft Translator tərəfindən dəstəklənən dillərin ümumi sayı 83-ə çatdırıldı. Microsoft Translator-un Android və iOS üçün də mobil versiyaları mövcuddur. Həmçinin veb interfeysi vasitəsilə səs və mətn tərcüməçisindən də istifadə etmək mümkündür. Microsoft Translator müxtəlif ölkələrdən olan tələbələrə mühazirə oxumağı, fərqli dillərdə danışan təhsil qruplarını bir araya gətirməyi və konfranslar keçirməyi çox asanlaşdırır.

Şirkətlər üçün Microsoft Translator-un müxtəlif biznes proqramlarına inteqrasiyası Cognitive Services APIs-ın kitabxana interfeysləri vasitəsilə nəzərdə tutulur.

"Bu, ölkələrin miqyasına və dilin mürəkkəbliyinə baxmayaraq, Süni İntellektin fərqli bölgələrdə və icmalarda innovasiyalara daha yaxın olmaq imkanının yaratmasının əla nümunəsidir. Yeni nəsil maşın tərcüməsi modellərinin istifadəsi, tərcümənin keyfiyyətini və müxtəlif dillər üçün dəstəyi əhəmiyyətli dərəcədə artırır. Bunun sayəsində Azərbaycan, Polşa, Albaniya, Ukrayna, Qazaxıstan və digər ölkələrdəki şirkətlər, tədqiqatçılar və vətəndaşlar ən son məlumatlara və araşdırmalara giriş əldə edə bilər. Bu onlara həmçinin səhiyyə, vətəndaş xidmətləri, əsaslı tədqiqatlar və ticarət tətbiqetmələrində yeniliklərin inkişafına və tətbiqinə töhfə verməyə, təcrübə mübadiləsi aparmağa imkan yaradacaq", - Mərkəzi və Şərqi Avropa bölgəsi üzrə Microsoft-un Süni İntellekt istiqamətinin rəhbəri Dmitri Turçin belə hesab edir.

Lokallaşdırılmış xidmət və tətbiqlər Microsoft-un Süni İntellektini müxtəlif dövlət və özəl sektorlarda istifadəsini daha da yaxınlaşdıracaq.

# Lider mobil operator növbəti karyera sərgisində iştirak edib



Fəaliyyəti boyunca gənc nəslin peşəkar və fərdi inkişafına dəstək olan "Azercell Telekom" MMC növbəti karyera sərgisində öz stendi ilə təmsil olunub. İyun ayının 2-də Xəzər Universitetinin nəzdində fəaliyyət göstərən Dünya Məktəbində təşkil edilən sərgidə Azercell-in İnsan Kapitalının İdarə Edilməsi departamentinin mütəxəssisləri sərgi iştirakçıları ilə görüşüb, onların suallarını cavablandırıb. Tədbir iştirakçıları şirkətdə mövcud olan vakansiyalar, hər il ənənəvi olaraq tələbələr üçün təşkil edilən təcrübə və təqaüd proqramları, kadrların seçilməsi və işə qəbul prosesləri haqqında ətraflı məlumat əldə ediblər.

Qeyd edək ki, Azercell mütəmadi olaraq karyera sərgilərində iştirak edərək öz bacarıq və biliklərinə uyğun iş axtaran gənclərə dəstək olmağa çalışır. Şirkət may ayının 25-i Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin onlayn formatda təşkil etdiyi X Məzun-Karyera Sərgisinə də qatılıb. 63 dövlət qurumu və özəl şirkətlərin iştirakı ilə həyata keçirilən bu sərgidə ümumilikdə 200-dən çox vakansiya və 300-dək təcrübə yeri təqdim olunub.

Azərbaycanda təhsilin inkişafına daima töhfə verən və ölkəmizin nüfuzlu universitetləri ilə əməkdaşlıq edən Azercell bu istiqamətdə fəaliyyətini gələcəkdə də davam etdirəcək.

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Akif Musayev, Vahid Novruzov, Ədalət Muradov, Qüdrət Kərimov, Elşən Hacızadə, Süleyman Qasımov, Mirqasım Vahabov, Bəyalı Ataşov, Məiş Əhmədov, Aydın Hüseynov, Rəsul Balayev, Müşfiq Atakişiyev, Zahid Məmmədov, Aytən Səmədzadə, Elşad Səmədzadə

Dizayner:
Lamiyə NƏBİYEVA

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, «Azermedia» MMC nəşriyyatı mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 2500